1 noyabr 2024 №81 (2146)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Budur, gəldi noyabr...

### Dünyanın diqqəti Bakıda olacaq




Bütün dünyanın diqqətinin Bakıya yönəlməsinə on gün qalıb. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva oktyabrın 31-də Bakıda "Gələcəyin sədaları: iqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi" mövzusunda tədbirdə çıxışı zamanı belə deyib.

BMT nümayəndəsi bildirib ki, son 10 ay ərzində mən və həmkarlarım COP29 prezidentliyinə dəstək olmuşuq ki, onlar ən böyük iqlim konfransının ev sahibliyinə hazır olsunlar.

***

Bu arada Bakıda COP29-a son hazırlıqlar davam edir. Nəqliyyat sektorunun ölkəmizin tarixində ev sahibliyi edəcəyi ən böyük tədbirə hazırlığı da diqqət mərkəzindədir.

Prezident İlham Əliyev oktyabrın 31-də Bakıda Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub. Dövlətimizin başçısına burada Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı avtobus və "TX5" markalı elektrik mühərrikli taksi nəqliyyat vasitələri təqdim edilib.

Prezident İlham Əliyev oktyabrın 31-də "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə də tanış olub. Bildirilib ki, "Qlobalnıye Transportnıye Reşeniya" MMC (Rusiya) ilə "Bakı Metropoliteni" QSC arasında bağlanmış müqaviləyə əsasən, 2024–2026-cı illər ərzində 65 yeni vaqonun (13 qatar tərkibi) istehsal edilərək Bakı metropoliteninə gətirilməsi nəzərdə tutulub. Bu il gətirilmiş 7 qatardan 5-nin yığılaraq komplektləşdirilməsi və sınaq işləri başa çatdırılıb. Daha 2 qatarın xəttə buraxılması noyabrın 8-nə qədər təmin ediləcək.

***

COP29 zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunda gündəlik sərnişin dövriyyəsinin 25-27 minə çatacağı gözlənilir. Hava limanının direktoru Teymur Həsənov bildirib ki, hazırda bu rəqəm 18-20 min arasındadır. Onun sözlərinə görə, aeroport gücləndirilmiş rejimdə gündəlik 45-50 min sərnişinə xidmət göstərə bilər. COP29 çərçivəsində əlavə 15 çarter reysi planlaşdırılır.

## Azərbaycan İstanbul sərgisinin "fəxri qonaq ölkə"sidir

### Milli stendimizdə kitabla bağlı 20-dən çox tədbir keçiriləcək

Noyabrın 2-də 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisi başlanır. TÜYAP kompleksində "Uşaqlıq şənlikdir" şüarı altında keçirilən sərgi bu il ölkəmiz üçün xüsusilə əlamətdardır. Noyabrın 10-dək davam edəcək sərgidə Azərbaycan "fəxri qonaq ölkə"dir.




Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə digər sahələr kimi, kitab sənayesi də uğurla inkişaf edir. Bu qayğının nəticəsində artıq bu gün ölkəmiz beynəlxalq kitab sənayesinin bir hissəsinə çevrilib. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın bu sahədəki uğurları mütəmadi olaraq nüfuzlu kitab sərgilərində təqdim olunur. Azərbaycanın dünyanın ən böyük kitab festivallarından olan İstanbul sərgisində "fəxri qonaq" seçilməsi ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlərə verilən qiymətdir.

Mədəniyyət Nazirliyinin nümayəndələri, tanınmış yazar və incəsənət xadimlərindən ibarət nümayəndə heyəti İstanbul Beynəlxalq Kitab Sərgisində iştirak edəcək.

Noyabrın 2-də sərginin rəsmi açılış mərasimi olacaq. Həmin gün sərgi məkanında Azərbaycan stendinin də təqdimatı keçiriləcək.

Sərgidə ölkəmizdən 10 nəşriyyat iştirak edəcək. Sərgi çərçivəsində Azərbaycan Milli Kitabxanası ilə Türkiyə Milli Kitabxanası arasında əməkdaşlığa dair 2012-ci ildə imzalanmış memorandum yenilənərək təkrar imzalanacaq.

Sərgi günlərində stendimizdə yazarların imza mərasimləri, kitab təqdimatları, rəsm sərgisi, milli mətbəximizin nümayişi təşkil olunacaq, eləcə də çağdaş ədəbi prosesə bağlı müzakirələr, ikitərəfli işgüzar görüşlər – ümumilikdə 20-dən çox tədbir nəzərdə tutulub.

Qeyd edək ki, sərginin builki "fəxri yazarı" Türkiyənin uşaq və gənclik ədəbiyyatına böyük töhfələr vermiş Yalvaç Ural olacaq. Eyni zamanda sərgidə bir sıra ölkələrdən məşhur yazıçıların iştirakı gözlənilir. 9 gün davam edəcək sərginin proqramına 450-dək müxtəlif səpkili tədbir, eləcə də yüzlərlə imza mərasimi daxildir.

Xatırladaq ki, İstanbul Kitab Sərgisinin əsası 1982-ci ildə qoyulub. 2000-ci ildən TÜYAP sərgi kompleksində keçirilən sərgi 2005-ci ildə beynəlxalq tədbirə çevrilib. 2020–21-ci illərdə pandemiya səbəbindən sərgi keçirilməyib. Son dörd sərgidə "fəxri qonaq ölkə" olmayıb və 2018-ci ildən bəri ilk belə dəvəti Azərbaycan alıb.

## "e-Culture" – mədəniyyət sahəsinin rəqəmsal idarəetmə modeli

### Görülmüş işlərlə bağlı təqdimat olub




Oktyabrın 31-də Mədəniyyət Nazirliyi tərəfindən "e-Culture" rəqəmsal idarəetmə modeli çərçivəsində görülmüş işlərlə bağlı təqdimat keçirilib.

Nazirliyin Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimovanın moderatorluğu ilə gerçəkləşən təqdimatda mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edib.

Nazir müavini bildirib ki, qarşıdakı onillikdə qlobal çağırışlar, demək olar ki, bütün sektorlarda, o cümlədən mədəniyyət sektorunda məhz sürətli rəqəmsallaşma meyilləri ilə səciyyələnəcək. Hazırda ənənəvi mədəniyyət formatı getdikcə sıradan çıxır, yeni nəsil insanlar mədəniyyəti rəqəmsal prizmadan qəbul edir. Ölkəmizin sosial-iqtisadi sisteminin prioritetinə çevrilmiş rəqəmsallaşma həyatın bütün sahələrinə, o cümlədən insanların gündəlik fəaliyyətinə sürətlə nüfuz edir. Bütün bu reallıqlar nəzərə alınaraq "Mədəniyyət Nazirliyinin "e-Culture" rəqəmsal inkişaf strategiyası" təsdiq edilib və strategiyanın icrası ilə bağlı işlərə başlanılıb.

Qeyd olunub ki, qarşıdakı üç ildə mədəniyyət sahəsinin rəqəmsallaşdırılması və proseslərin optimallaşdırılması, data əsaslı rəqəmsal idarəetmə modelinin və vahid inzibatlaşma siyasətinin tətbiqi, informasiya sistemlərinin və ehtiyatlarının təkmilləşdirilməsi, xidmətlərin yenidən layihələndirilməsi və elektronlaşdırılması, inteqrasiya imkanlarının genişləndirilməsi, daxili idarəetmə proseslərinin avtomatlaşdırılması – ümumilikdə 10 prioritet istiqamət üzrə 100-dən çox tədbirin həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə rəqəmsal idarəetmə prosesini təşkil etmək üçün İşçi qrupu yaradılıb, "e-Culture" strategiyasının tədbirlər planı təsdiq edilib. Bütün klasterlər üzrə mövcud vəziyyət təhlil olunub və ehtiyaclar müəyyənləşdirilib.

davamı səh. 2-də

## Mədəniyyət və yaradıcı sənayelər üzrə 20 nəfər xaricdə təqaüdlə təhsil alacaq

Ölkəmizdə gənclərin xaricdəki nüfuzlu universitetlərdə təhsil alması, təlim kursları və beynəlxalq təcrübə proqramlarında iştirakı diqqətdə saxlanılır. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında "Mədəniyyət və yaradıcı sənayelərin (MYS) dinamik inkişafının təmin edilməsi və bu sahədə ixrac potensialının gücləndirilməsi" fəaliyyət istiqaməti də əksini tapıb.

MYS sahələrinin tələblərinə uyğun sertifikat proqramlarının və xaricdə təhsil üçün xüsusi təqaüd proqramının yaradılması ilə əlaqədar Mədəniyyət Nazirliyi əsas icraçı qurum olaraq müəyyənləşdirilib. Nazirliyin Kollegiyasının qərarı ilə "MYS üzrə xüsusi Təqaüd Proqramı" çərçivəsində "Təhsil alacaq şəxslərin seçilməsi meyarları, prosedurları və təhsilin maliyyələşdirilməsi Qaydaları" təsdiq olunub və proqram üzrə qəbul elan edilib.

Oktyabrın 25-də təqaüd proqramı üçün seçim mərhələsinin başa çatması və proqram üzrə komissiya tərəfindən müəyyən edilən namizədlərin elan olunması ilə bağlı mətbuat konfransı keçirilib.

davamı səh. 3-də

## "COP29 – insanın təbiəti"

### Parisdə Reza Deqatinin sərgisi

Parisdə İqlim Akademiyasında məşhur fotoqraf Reza Deqatinin "COP29 – insanın təbiəti" sərgisi açılıb.



Sərgidə Reza Deqatinin 50 il müddətində müşahidə etdiyi və bugünkü humanitar və ekoloji fövqəladə vəziyyəti əks etdirən fotoları nümayiş olunur. Burada Əfqanıstan, Əlcəzair, Qazaxıstan, Misir, Suriya, Türkiyə kimi ölkələrlə yanaşı, Azərbaycanda çəkilmiş fotolar da sərgilənir. Qarabağda çəkilmiş "Nar" müharibə vaxtı onu dərmək üçün bağda olan uşağın düşmən bombasına tuş gəlməsini xatırladır.

Reza Deqati bildirir ki, fotoqrafiyanın universal dili geniş auditoriyaya təsir edir. Sərginin İqlim Akademiyasında təşkili də təsadüfi deyil. COP29 ərəfəsində bir daha ictimaiyyəti maarifləndirmək üçün məhz bu akademiya seçilib. Təbiətin gözəlliyi qarşısında insanın əli ilə törətdiyi fəlakətlər arasında Reza Deqatinin sərgisi ekoloji maarifləndirmə və məlumatlandırma üçün vasitəçilik tədbirlərinin əsasını təşkil edir.

"COP29 – insanın təbiəti" sərgisi dekabrın 20-dək ziyarətçilərə açıq olacaq.

## COP29 və mədəniyyət: iqlim dəyişikliyinin mədəni ölçüləri

### "İqlim böhranına qarşı mədəniyyətin gücündən istifadə edə bilərik"



Oktyabrın 31-də ADA Universitetində "COP29 və mədəniyyət: iqlim dəyişikliyinin mədəni ölçüləri" mövzusunda konfrans keçirilib.

ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun ixtisasartırma proqramlarının rəhbəri Nərgiz İsmayılovanın moderatorluğu ilə gerçəkləşən konfransın məqsədi mədəniyyətin və iqlim dəyişikliyinin qarşılıqlı əlaqəsini araşdırmaq, mədəni təcrübələrin və ənənələrin ətraf mühit dəyişikliklərinə təsirlərini diqqətə çatdırmaqdır.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov konfransda çıxış edərək Azərbaycanın həm milli, həm də beynəlxalq səviyyədə ətraf mühit gündəliyinə sadiq olduğunu söyləyib. Bildirilib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu addım COP29-u hamı üçün davamlı inkişaf və yaşıl gələcəyi inkişaf etdirən təsirli hadisəyə çevirmək əzmimizin göstəricisidir.

davamı səh. 2-də



Tanrı quşu gəlməsə də...

Lənkəran teatrı Bakıda

səh. 4

## Balakəndə Xurma festivalı keçirilib

### Kənd təsərrüfatı işçiləri peşə bayramını bol məhsulla qeyd edirlər

Azərbaycanda kənd təsərrüfatının, xüsusilə əkinçilik mədəniyyətinin qədim tarixi və ənənələri var. Prezident İlham Əliyevin 2008-ci ildə imzaladığı sərəncamla 1 noyabr – kənd təsərrüfatı işçiləri üçün peşə bayramı gününün təsis olunması, bu sahənin inkişafına diqqətin təzahürü olmaqla yanaşı, həmçinin tarixi ənənələrin yaşadılması deməkdir.




Sevindirici haldır ki, xalqımızın uzun illər boyu əkib-becərdiyi torpağa, onun nemətlərinə şükranlıq duyğusu ilə qeyd etdiyi məhsul bayramı ənənələri də davam etdirilir. Bölgələrdəki bu qəbildən tədbirlərdən biri Balakən rayonunda 2017-ci ildən keçirilən Xurma festivalıdır. Oktyabrın 29-da Balakən növbəti Xurma festivalına ev sahibliyi edib.

Festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və "Balxurma" MMC-nin dəstəyi, Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilib. Festivalda təşkilatçı dövlət qurumlarının nümayəndələri, qonşu rayonlardan gəlmiş qonaqlar, xurma istehsalçıları, rayon sakinləri iştirak ediblər.

Heydər Əliyev adına mədəniyyət və istirahət parkında keçirilən festivalın açılış mərasimində rayonun icra başçısı İslam Rzayev, Kənd Təsərrüfatı Nazirliyi Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Qadir Yusifov çıxış ediblər.

Festival iştirakçıları bayramsayağı bəzədilmiş parkda xurmadan hazırlanmış kulinariya məhsullarına və kompozisiyalara, kənd təsərrüfatı məhsullarının sərgilərinə baxıblar.

Xurma bağına ekskursiya keçirilib, xurma ağacları əkilib.

Festival parkın ərazisindəki meydanda konsert proqramı ilə davam edib.

№81 (2146)
1 noyabr 2024
www.medeniyyet.az

# Milli Ensiklopediyanın redaksiya heyətinin tərkibində dəyişiklik

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli Sərəncamı ilə təsdiq edilən Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin tərkibində dəyişiklik edilib. Dövlət başçısı bununla bağlı 25 oktyabr 2024-cü il tarixində sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyətinin tərkibi yenilənib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Ensiklopediyanın redaksiya heyətinin sədridir.

Elm və Təhsil Nazirliyi Geologiya və Geofizika İnstitutunun baş direktoru akademik Akif Əlizadə, AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev və Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar redaksiya heyəti sədrinin müavinləridir.

Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, məsul katibi AMEA-nın vitse-prezidenti akademik Tofiq Nağıyevdir.

Redaksiya heyətinə elm, ali təhsil müəssisələrinin, yaradıcılıq qurumlarının rəhbərləri, akademiklər, tanınmış alimlər – ümumilikdə 34 nəfər daxildir.

# Yeni səfirlərin etimadnamələri qəbul edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Albaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Besart Kadianın etimadnaməsini qəbul edib. Səfir Albaniyanın Baş naziri Edi Ramanın salamlarını dövlətimizin başçısına çatdırıb. İlham Əliyev Albaniya hökuməti başçısının COP29-da iştirak edəcəyini vurğulayaraq, bunun ölkələrimiz arasında yaxın tərəfdaşlıq əlaqələrini nümayiş etdirdiyini deyib.

Prezident İlham Əliyev Ruanda Respublikasının yeni səfiri Çarlz Kayonqanın etimadnaməsini qəbul edib. Diplomat Ruanda Prezidenti Pol Kaqamenin salamlarını dövlətimizin başçısına çatdırıb və qeyd edib ki, ölkəsinin rəhbəri COP29-da iştirakını səbirsizliklə gözləyir.

Azərbaycan Prezidenti oktyabrın 31-də Banqladeş Xalq Respublikasının ölkəmizdəki yeni səfiri Amanul Haqın etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı Banqladeş Prezidenti Məhəmməd Şahabuddin ilə təmaslarını xatırlayaraq onun COP29-da iştirak edəcəyini məmnunluqla vurğulayıb.

Prezident Konqo Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri İvan Vanqu Nqimbinin də etimadnaməsini qəbul edib. COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir ölkəsinin başçısı Feliks Çisekedinin tədbirdə iştirak edəcəyini deyib.

# Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə

## Ətraf mühit problemlərini yaradıcı şəkildə təqdim etmək olar

Oktyabrın 30-da Əqli Mülkiyyət Agentliyi tərəfindən "Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə (COP29-a doğru)" mövzusunda dəyirmi masa keçirilib.

Agentliyin idarə heyətinin sədri Kamran İmanov açılış sözündə bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində keçirilən tədbirin məqsədi əqli mülkiyyətə əsaslanan innovasiyaların yaşıl gələcəkdəki rolunu göstərmək və onlara dəstək verməkdir.

Agentlik rəhbəri "Qlobal İnnovasiya İndeksi" üzrə hesabatlarda innovasiyaların enerji mənbəyi kimi vacib rolunun vurğulanmasının təsadüfi olmadığını söyləyib: "Yaşıl gələcəyi arzulayan bəşər cəmiyyətini quranların ilk sıralarında ixtiraçılar və müəlliflər durur. Bu isə onu göstərir ki, davamlı milli innovasiya sistemlərinin yaradılmasına və səmərəli milli əqli mülkiyyət sistemlərinə əlçatanlığın təmin edilməsinə yönəlmiş səylər bundan sonra da davam etdirilməlidir".

Dəyirmi masada K.İmanovun "Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə (COP29-a doğru)" mövzusunda təqdimatı da dinlənilib. Təqdimatda iqlim dəyişiklikləri və dünya miqyasında patent fəaliyyəti, Azərbaycanda patent fəaliyyətinin nəticələri haqqında ətraflı məlumat verilib.

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, mədəniyyət nazirinin müavini Səadət Yusifova, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev dəyirmi masada çıxış ediblər.

Səadət Yusifova qeyd edib ki, əqli mülkiyyət, mədəni yaradıcı sənaye və yaşıl texnologiyaların kəsişməsi yaradıcılıq, innovasiya və davamlılığı birləşdirən maraqlı, ancaq bir o qədər də mürəkkəb və çoxşaxəli sahədir. Əqli mülkiyyət təkcə iqtisadi inkişafın mühərriki deyil, həm də innovasiyaların ətraf mühitə uyğun şəkildə tətbiqinə təkan verən güclü vasitədir. Qorunma və əlçatanlığın tarazlaşdırılması, innovasiyaların təşviq edilməsi və mədəni irsə hörmət edilməsi vacib amillərdir.

Mədəniyyət sektorunun bu transformasiyada mühüm rolu olduğunu bildirən nazir müavini deyib: "Ənənəvi biliklər və təcrübələr yeni texnologiyalarla birləşdirilərək həm yerli icmaların, həm də qlobal cəmiyyətin faydasına çevrilə bilər. İncəsənət və mədəniyyət nümunələri ətraf mühit problemlərini yaradıcı şəkildə təqdim edərək insanları məsuliyyətli davranmağa ilhamlandıra bilər. Qeyri-maddi irsə aid edilən ənənəvi biliklərdən yaşıl nümunə hesab olunanları müəyyənləşdirib təbliğ etmək olar".

# Bakıda yaşıl məkanların sayı artır

## Prezident Nəsimi rayonunda yeni salınan parkdakı şəraitlə tanış olub

Prezident İlham Əliyev oktyabrın 30-da Bakının Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olub.



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verib.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır.

Bildirilib ki, yeni parkda sakinlərin və qonaqların asudə vaxtlarının təşkili üçün gözəl şərait yaradılıb. Ərazidə asfalt örtüyü ləğv edilərək müasir tələblərə cavab verən piyada yolları salınıb. Yeni parkda yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir.

"Yaşıl dünya naminə həmrəylik ili"ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nəsimi rayonu ərazisində yeni salınan park bir neçə gündən sonra COP29-a ev sahibliyi edəcək ölkəmizdə bu istiqamətdə həyata keçirilən işlərə töhfə sayıla bilər.

# COP29 və mədəniyyət: iqlim dəyişikliyinin mədəni ölçüləri

## "İqlim böhranına qarşı mədəniyyətin gücündən istifadə edə bilərik"

əvvəli səh. 1-də

Eyni zamanda Azərbaycan Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş "Bakı Prosesi" vasitəsilə beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsinə sadiqdir.

Nazir müavini xatırladıb ki, bu ilin may ayında Bakıda keçirilmiş VI Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iqlim və mədəniyyət arasındakı əlaqəyə toxunulub: "Bu da iqlim dəyişikliyinin mədəni irsə təsiri haqqında məlumatlılığı artırdı. Hazırda bu təşəbbüs dünya miqyasında yayılır və daha çox ölkə onu dəstəkləməkdə maraqlıdır. Biz həmçinin inanırıq ki, mədəniyyət müsbət iqlim gündəmini formalaşdırmaq gücünə malikdir. Bu mənada, Azərbaycan COP29-da İqlim üçün Mədəniyyət (C4C) təşəbbüsünü irəli sürməkdən məmnunluq duyur. C4C ənənələrin, incəsənətin və irsin davamlı təcrübə və dəyərləri necə inkişaf etdirə biləcəyini vurğulayaraq mədəniyyəti müsbət iqlim fəaliyyəti üçün görkəmli qüvvəyə çevirməyə çalışır".




Qeyd olunub ki, C4C təşəbbüsünə dəstək olaraq oktyabrın 8-də UNESCO-da Azərbaycanın COP29 çərçivəsində mədəniyyət məzmunlu tədbirlərinə dair təqdimat keçirilib. Bu tədbir C4C-nin qlobal miqyasda iqlim-pozitiv mədəni fəaliyyətləri təşviq etmək üçün necə mərkəz nöqtəsi kimi xidmət edəcəyini nümayiş etdirdi.

Fərid Cəfərov çıxışında gəncləri iqlim təşəbbüslərində fəal rol almağa dəvət edib: "Sizin ideyalarınız, yaradıcılığınız və həvəsiniz çox önəmlidir. COP29 ərzində Azərbaycanın mədəniyyət müəssisələri, o cümlədən muzeylər, teatrlar və s. iqlimə əsaslanan gündəliyi birləşdirəcək. Biz birlikdə bütün mədəni mənzərəmizin daha yaşıl gələcəyə olan bağlılığımızı əks etdirməsini təmin edirik. İqlim böhranı qarşısında planetimizi qoruyan yeni dəyərləri ilhamlandırmaq üçün mədəniyyətin gücündən istifadə etmək imkanımız var. Bu həm də bir məsuliyyətdir. Gəlin, mədəniyyətin müsbət iqlim gündəmini ruhlandırmaqda yol göstərdiyi bir gələcəyi qurmağa davam edək və hər birimiz bu transformativ səyahətin bir hissəsi olaq".

Daha sonra mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev söyləyib ki, son illər iqlim dəyişmələrinin təsiri ilə bağlı planetimizdə təbii fəlakətlərin sayı xeyli artıb. Bu da insan sağlamlığı, ətraf canlı aləm, kənd təsərrüfatı, sənaye və digər sahələrlə yanaşı, mədəni və təbii irsə də öz mənfi təsirini göstərir: "Azərbaycan iqlim dəyişikliyinin təsirini yumşaltmaq üçün bərpa olunan enerji mənbələrindən istifadənin artırılması, daha səmərəli yaşıl texnologiyalarını inkişafı kimi bir sıra tədbirlər həyata keçirib. Təkcə 2023-cü il ərzində ölkə ərazisində 4 milyona yaxın ağac əkilib, cari ildə 5 milyon ağacın əkilməsi hədəflənib".

Vurğulanıb ki, qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyinin ölkəmizə həvalə edilməsi yüksək etimadın və inamın növbəti göstəricisi, beynəlxalq təşkilatlarla formalaşdırılmış uğurlu əməkdaşlığın nəticəsidir.

Digər çıxış edənlər mədəni perspektivlərin iqlim fəaliyyətinə inteqrasiya edilməsi ilə bağlı strategiyalar haqqında öz fikirlərini bildiriblər.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

**Nurəddin**

# "e-Culture" – mədəniyyət sahəsinin rəqəmsal idarəetmə modeli

## Görülmüş işlərlə bağlı təqdimat olub

əvvəli səh. 1-də

Strategiyanın əhatə etdiyi dövr ərzində elektron xidmətlərin "tam elektron xidmət" şəklində təqdim edilməsi 80%, digər istiqamətlər isə tam şəkildə həll olunub. Eyni zamanda Dövlət Xidmətləri Reyestrində Mədəniyyət Nazirliyinin ən azı 20 tam elektron xidmətinin yerləşdirilməsi, nazirlikdə vahid "Elektron Kabinet" (www.my.culture.az) sisteminin tətbiqi və bütün aidiyyəti resursların vahid "Elektron Kabinet"ə inteqrasiyası nəzərdə tutulur. Bundan əlavə, daşınmaz tarix və mədəniyyət abidələrinə dair məlumatların rəqəmsallaşdırılması, Azərbaycan mədəniyyətinin təbliğinə dair müasir texnologiyaların tətbiqi ilə ən azı 10 promo resursun hazırlanması prioritet istiqamətlər sırasındadır.

Nazirliyin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov "e-Culture" strategiyası ilə bağlı nazirliyin bir çox qurumlarla əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Deyib ki, mədəniyyət sahəsində çalışan insanların rəqəmsallaşma və müasir texnoloji yeniliklərdən məlumatlı olması vacibdir. Strategiya hazırlanarkən İT parkın və şəbəkə təhlükəsizliyinin auditi aparılıb. Şəbəkə və kibertəhlükəsizlik arxitekturası işlənilib. Müxtəlif klasterlər və modullar üzrə ümumilikdə 10 təlim keçirilib, rəqəmsal analitik təhlillərin aparılması təmin edilib. Hər bir müəssisə üzrə daxili xəritə hazırlanıb.




Rəşad Əzizov kalsterlər, modullar, "e-Culture" matrisi, "e-Culture" arxitekturası, nazirliyin informasiya resursları, eləcə də ötən il təşkil edilən Uşaq İncəsənət Festivalının rəqəmsal analitik təhlili barədə məlumatı diqqətə çatdırıb. Nazirliyin ölkə üzrə mədəniyyət obyektləri və müəssisələrinin reyestrinin yenidən yaradılması, vahid şəxsi kabinet sistemi vasitəsilə bir pəncərə prinsipi əsasında mədəniyyəti rəqəmsal prizmadan tanımaq və s. məsələlər haqqında söz açılıb. Qeyd olunub ki, nazirliyin sistemində fəaliyyət göstərən bədii təhsil ocaqlarına təhsilalan və təhsilverənlərin elektron qəbulu uğurla reallaşdırılır.

Nazirliyin Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimova çıxışında müasir mədəni mühitdə məzmunun yaradılmasının vacibliyini qeyd edib. Bildirib ki, bu gün milli və insani dəyərlərə cavab verən məzmun qıtlığı var. Nazirliyin rəsmi saytı ("culture.gov.az") barədə məlumat verən şöbə müdiri gələcəkdə bu resursların "e-Culture" rəqəmsal idarəetmə modelində tətbiq ediləcəyini deyib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, təkliflər səsləndirilib.

**Lalə Azəri**



Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə oktyabrın 28-29-da Şuşa şəhərində "Azərbaycanda sağlamlıq turizmi: inkişaf imkanları" mövzusunda beynəlxalq konfrans keçirilib.

# Şuşada sağlamlıq turizmi mövzusunda beynəlxalq konfrans keçirilib

Türkiyə, Rusiya, İsveçrə, Çexiya, Malayziya və Qazaxıstandan mütəxəssislərin qatıldığı tədbir sağlamlıq turizmi sektorunda qabaqcıl təcrübələrin araşdırılmasına və Azərbaycan üçün inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə həsr olunub.

DTA sədri Fuad Nağıyev sağlamlıq turizmi üzrə geniş potensiala malik Azərbaycanda bu sahə ilə bağlı son illər mühüm işlər görüldüyünü deyib. Qeyd edib ki, bu sahədə marketinq fəaliyyətinin təşkili, brendin yaradılması agentliyin əsas fəaliyyət istiqamətlərindən biridir. Naftalan neftinin turizm məhsulu kimi daha da inkişaf etdirilməsi, yeni bazarlarda təşviq edilməsi əsas hədəflər sırasındadır. Qarabağ və Şərqi Zəngəzurda da sağlamlıq turizmi üçün zəngin potensiallı ərazilər mövcuddur: "Bu istiqamətdə Kəlbəcər və onun balneoloji imkanları xüsusilə seçilir. Kəlbəcərdə turizmin inkişafına dair hazırlanmış konsepsiya sənədində təklif edilən 5 turizm və rekreasiya zonasından ikisi mineral-termal bulaqlar ətrafında olmaqla sağlamlıq turizmi profilinə sahibdir. Laçın da mineral-termal su resursları ilə zəngindir. Həmçinin Şuşa şəhərinin hava-rekreasiya imkanları sağlamlıq turizmi üzrə istiqamətlərin inkişafına töhfə verə bilər".

Prezidentin Kəlbəcər rayonunda xüsusi nümayəndəsi Bəşir Hacıyev və Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov da konfransda çıxış ediblər. B.Hacıyev Kəlbəcərdə "İstisu" sanatoriyasının yenidən qurulması haqqında məlumat verib.

Konfrans işini "Azərbaycan sağlamlıq turizmi mərkəzi kimi: cari vəziyyət və imkanlar", "Sağlamlıq turizmində qlobal və uğurlu təcrübələr: Azərbaycan üçün təkliflər", "Azərbaycan tibbi turizmi: gələcəyə baxış və strategiya" adlı panel sessiyaları ilə davam etdirib.

Tədbir çərçivəsində "Sağlamlıq turizmi sənaye sərgisi: unikal məhsullar" adlı sərgi açılıb.

№81 (2146)
1 noyabr 2024
www.medeniyyet.az



# BDU-da Milli Kitabxananın xüsusi auditoriyası açılıb

## İki qurum arasında əməkdaşlıq memorandumu imzalanıb

Bakı Dövlət Universiteti (BDU) və Azərbaycan Milli Kitabxanası bundan sonra daha sıx əməldaşlıq edəcək. Oktyabrın 25-də BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsində Milli Kitabxananın xüsusi auditoriyasının açılışı keçirilib. Həmçinin iki qurum arasında əməkdaşlıq memorandumu imzalanıb.

Mərasimdə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Mədəniyyət Komitəsinin sədr müavini Günay Əfəndiyeva, Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, ziyalılar və alimlər iştirak ediblər.

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Milli Kitabxananın direktoru Kərim Tahirov imzalayıblar.

Sənəddə müasir kitabxana texnologiyaları, rəqəmsal xidmətlər və süni intellekt texnologiyaları sahəsində birgə layihələrin hazırlanması, innovativ tədqiqat laboratoriyaları və tədris məkanlarının yaradılması, eləcə də rəqəmsal informasiya resurslarının inteqrasiyası, elektron resurs mübadiləsi, rəqəmsal kitabxana xidmətlərinin birləşdirilməsi və genişləndirilməsi, Milli Kitabxananın elektron arxivlərinə BDU-nun təhsilalan və tədqiqatçılarının çıxışının təmin edilməsi nəzərdə tutulur.



Eyni zamanda memorandumda Azərbaycan elmi, tarixi, mədəni irsi ilə bağlı mövzularda müxtəlif səpkili birgə tədbirlərin təşkili, müştərək nəşr layihələrinin həyata keçirilməsi əksini tapıb. Bundan əlavə, kitab fondlarının birgə istifadəsi, kitab mübadiləsi və yeni elmi ədəbiyyatın təmin edilməsi, xüsusilə nadir kitabların, arxiv materiallarının tədqiqi və mühafizəsi sahəsində əməkdaşlıq da sənəddə qeyd olunub.

Mədəniyyət naziri Adil Kərimli mərasimdə çıxış edərək BDU-da Milli Kitabxananın xüsusi auditoriyasının açılmasının elm, təhsil və mədəniyyət ictimaiyyəti üçün önəmli hadisə olduğunu deyib. Bildirilib ki, Ümummilli lider Heydər Əliyev Bakı Dövlət Universitetini Azərbaycan xalqının milli sərvəti kimi qiymətləndirib. Azərbaycan Milli Kitabxanası da ölkə mədəniyyətinin əsas mərkəzlərindən biridir: "BDU-da yüksəkixtisaslı kadrların yetişdirilməsi işinə daim dəstək göstərməyə hazırıq. Mədəniyyət sahəsində elm və təhsilin inkişafı prioritetlərimizdən biridir. Bu auditoriyadan universitetin professor-müəllim heyəti, tələbə və tədqiqatçıları faydalanacaq".

Nazir çıxışında həmçinin son illərdə BDU-da magistratura səviyyəsində mədəniyyət hüququ ixtisaslaşmasının yaradılmasının əhəmiyyətini də yüksək qiymətləndirib.

BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, universitetdə müasir dövrün çağırışlarına cavab verən yeni texnologiyaların tətbiqinə önəm verilir, əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmalar açılır. Xüsusi auditoriyanın açılışı ilə yanaşı, BDU və Azərbaycan Milli Kitabxanası arasında bu gün imzalanan anlaşma memorandumu da əməkdaşlıq baxımından yeni imkanlar yaradır.

Kərim Tahirov bundan sonra Milli Kitabxananın kitabxana işinə dair nəşrlərinin, biblioqrafik vəsaitlərin təqdimatlarının bu auditoriyada da keçiriləcəyini, fakültə müəllimlərinin və tələbələrinin təqdimat zamanı irəli sürdüyü təkliflərin gələcək nəşrlərdə nəzərə alınacağını bildirib. Qeyd olunub ki, kitabxana tərəfindən auditoriyanın yeni nəşrlərlə mütəmadi təmin edilməsi diqqətdə saxlanılacaq.

# "Qeyri-səlis məntiq və dil-nitq" kitabının təqdimatı

Oktyabrın 29-da Milli Kitabxanada Xalq yazıçısı, akademik Kamal Abdullanın və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, professor Rafiq Əliyevin müəllifləri olduğu "Qeyri-səlis məntiq və dil-nitq" kitabının təqdimatı keçirilib.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov kitab haqqında məlumat verib. O, yeni nəşrin hər iki alimin bu istiqamətdə birgə tədqiqatının nəticəsi olduğunu bildirib. Diqqətə çatdırılıb ki, bundan öncə onların "Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq" adlı kitabı işıq üzü görüb.

Rafiq Əliyev qeyri-səlis məntiq nəzəriyyəsinin sosial elmlərə tətbiqi barədə danışıb, "Qeyri-səlis məntiq və dil-nitq" kitabının ideya müəllifinin Kamal Abdulla olduğunu və hər iki kitabın Lütfi Zadə ideyalarının təbliğində böyük rol oynayacağını vurğulayıb.



Kamal Abdulla əsərin ərsəyə gəlməsindən söhbət açıb. O, "Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq" kitabının iki il əvvəl Azərbaycanda, Türkiyədə və Almaniyada nəşr edildiyini bildirib. Diqqətə çatdırıb ki, kitab ingilis dilində də çap ediləcək.

Akademik Muxtar İmanov, professorlar Hacan Hacıyev, İsmayıl Teymuroğlu və digər çıxış edənlər bildiriblər ki, yeni kitab müəlliflərin dərin fəlsəfi düşüncələrini və qeyri-səlis məntiqə söykənən yaradıcılıq axtarışlarını bir araya gətirir. Bu fundamental tədqiqat əsəri, müasir dilçilik və məntiq sahələrində açdığı yeni üfüqlər qeyri-səlis məntiqin sosial elmlərə geniş şəkildə tətbiqinin vacibliyini bir daha ön plana çıxarır. Əsərin Azərbaycan dilçiliyində məntiq və dil arasındakı əlaqələrin təhlilində yeni istiqamətlər açmaqla yanaşı, hər iki müəllifin elmi yaradıcılığında gələcək tədqiqatlar üçün zəmin yaradır.

Qeyd edək ki, Türkiyənin Dil və Sistem Fondunun sədri Rüştü Burak Eke kitaba ön söz yazıb. Nəşrin elmi redaktorları professorlar Lətafət Qardaşova, Azad Məmmədov, Burak Eke, rəyçiləri Xalq şairi Ramiz Rövşən, İsmayıl Məmmədov və professor Hacan Hacıyevdir.

# "Sənətkarın dostu" – tarzən Elçin Həşimovla görüş

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə "Sənətkarın dostu" layihəsi çərçivəsində oktyabrın 29-da Vaqif Mustafazadə adına 2 nömrəli İncəsənət məktəbində Xalq artisti, tarzən Elçin Həşimov ilə görüş keçirilib.

Görüşdə tar alətində ifaçılıq ənənələri, peşəkar milli musiqi mədəniyyətinin inkişafında tarın rolu, uşaq və gənclərin bədii zövqünün formalaşdırılması məsələləri üzrə söhbət aparılıb.

Elçin Həşimov sənətdə ilk addımlarından, tar alətinin milli musiqimizdə özünəməxsus yerindən, həmçinin ifaçılıq təcrübəsindən bəhs edib.

2 nömrəli İncəsənət məktəbinin müəllimi, "Muğam aləmi" VI Beynəlxalq Muğam Müsabiqəsinin Qran-pri mükafatçısı Vaqif Təhməzovun (nağarada Siyavuş Kərimovun müşayiəti ilə), Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli 11 illik Musiqi məktəbinin 10-cu sinif şagirdi Hüseyn Əliyevin ifasında müxtəlif musiqi əsərləri səslənib.




Ustad dərsi formatında keçirilən görüşdə sənətçi iştirakçıları maraqlandıran sualları cavablandırıb, yeni musiqi albomunu gənc tar ifaçılarına hədiyyə edib.

# Gəncə filarmoniyasının konsert və layihələri





Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təqdim etdiyi "Urbanda görüşərik" layihəsi çərçivəsində Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin (1369–1419) 655 illiyinə həsr olunmuş "Haqq məndədir" adlı bədii-musiqili gecə keçirilib.

AMEA-nın Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarov, Gəncə Maarif Evinin direktoru İmamverdi Vəliyev və başqaları tədbirdə iştirak ediblər.

"İmadəddin Nəsiminin həyat və yaradıcılığına dövlət qayğısı", "Nəsimi obrazı Azərbaycan incəsənətində" adlı məruzələr dinlənilib, şairin məşhur qəzəlləri səsləndirilib.

***

Filarmoniyanın "Gəncədən Bakıya" layihəsi çərçivəsində paytaxtdakı Şəhriyar adına Mədəniyyət Mərkəzində görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlunun mahnılarından ibarət "Payız gəldi" adlı konsert proqramı keçirilib.

Xalq artisti Heydər Anatollu, filarmoniyanın solistləri Məhərrəm Qasımov, Zəminə Mustafayeva, Rüstəm Cəfərov, Xəyal Əliyev, Əli Məmmədov, Eminağa Sadıqov, Aynur İsgəndərli, Amil Həsənoğlu, Vasif Bayramov bəstəkarın "Gəncədən gəlirəm", "Güllərim", "Kəpənək", "Sən olmuşam", "Gözümdə Leylisən", "Uzaq yaşıl ada", "İl nə gözəldir", "Payız gəldi", "Çiçək yağışı", "Şükriyyə", "Təkcə ümid qalsın", "Aman ayrılıq", "Can Azərbaycan" mahnılarını ifa ediblər.

***

Gəncə filarmoniyasının təqdim etdiyi "Üzbəüz" layihəsi çərçivəsində bəstəkar, Əməkdar artist Vüqar Camalzadə ilə görüş təşkil edilib. Görüşdə Gəncənin mədəniyyət və incəsənət xadimləri, tələbə və gənclər iştirak ediblər.

Vüqar Camalzadə tamaşaçıların suallarını cavablandırıb, yaradıcılıqla bağlı təcrübəsini bölüşüb.

***

Əməkdar artist Gülüstan Əliyevanın Gəncə filarmoniyasında "Təşəkkür" adlı solo konserti keçirilib.

Filarmoniyanın Kamera orkestri (bədii rəhbər və baş dirijor Xalq artisti Rafael Bayramov) və "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının (bədii rəhbər Sahil Quliyev) müşayiəti ilə müğənni "Küsmə gəl" xalq mahnısı, Cavanşir Quliyevin "Bura vətəndir", Polad Bülbüloğlunun "Bayatılar", Oqtay Kazımının "Toy olsun, bayram olsun", Arif Babayevin "Ay mənim məhəbbətim", Ələkbər Tağıyevin "Neylərəm", Elza İbrahimovanın "Gəl barışaq", "Sən yadıma düşəndə", Emin Sabitoğlunun "Gəncədən gəlirəm" və Siyavuş Kəriminin "Ömrümün istəyi" mahnılarını ifa edib.

Müğənninin Gəncədə ilk konserti böyük maraqla qarşılanıb.

# Mədəniyyət və yaradıcı sənayelər üzrə 20 nəfər xaricdə təqaüdlə təhsil alacaq

*əvvəli səh. 1-də*

Milli İncəsənət Muzeyində keçirilən tədbirdə Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimova, Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov, mədəniyyət nazirinin müşavirləri Cəsarət Valehov və Cahangir Səlimxanov çıxış ediblər.

Diqqətə çatdırılıb ki, MYS üzrə xaricdə təqaüd proqramı çərçivəsində 2026-cı ilin sonunadək 60 nəfər tələbənin təhsilinin maliyyələşdirilməsi nəzərdə tutulub. Təqaüd proqramında bakalavriat və magistratura səviyyələri üzrə xaricdə təhsil, xaricdə keçirilən qısamüddətli təlim, kurs və proqramlar (o cümlədən distant formada) üzrə təhsil və Azərbaycan Respublikası ərazisində keçirilən qısamüddətli təlim, kurs və proqramlarla bağlı təhsil seçimləri mümkündür.




15 avqust – 15 sentyabr tarixlərində 11 ixtisaslaşma istiqaməti – audiovizual (musiqi, kino-animasiya, videoqrafiya və fotoqrafiya), dəb sənəti, dizayn, kuratorluq, memarlıq, tədbirlərin təşkili, mədəni və yaradıcı sahə üzrə menecment, nəşriyyatlarla işin təşkili, oyun sənayesi, teatr, komediya və performans, yaradıcı texnologiyalar üzrə bakalavriat və magistratura səviyyələrində xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı sənəd qəbulu elan edilib. Bu müddətdə edu.creative.az saytı üzərindən 26 namizəd qeydiyyatdan keçib və onlardan 21 nəfər müsahibədə iştirak etmək şansı qazanıb. 8 nəfər bakalavriat, 13 nəfər magistratura səviyyəsi təhsil üçün müraciət edib.

Namizədlərin sənədlərinin təhlilindən aydın olur ki, müraciət edənlərin qəbul aldığı təhsil ocaqları yüksək reytinqli xarici ali təhsil müəssisələri və seçilən ixtisaslar da prioritet sahələrdir. Müraciətlər diqqətlə nəzərdən keçirilib və 18 nəfərin təhsil və yaşam xərclərinin təqaüd proqramı çərçivəsində maliyyələşdirilməsi məqsədəuyğun hesab edilib. Bundan əlavə, təqaüd proqramından öncə nazirliyə müraciət etmiş iki tələbənin təhsil və yaşam xərclərinin də dəstəklənməsi qərara alınıb.

Qeyd edək ki, "Təhsil alacaq şəxslərin seçilməsi meyarları, prosedurları və təhsilin maliyyələşdirilməsi Qaydaları"na əsasən, proqram iştirakçıları məzun olduqdan sonra nazirliyin strukturuna daxil olan və daxil olmayan tabeliyindəki qurumlarda təhsil aldıqları ixtisaslaşma istiqamətləri üzrə 3 ildən az olmayan müddətdə əmək fəaliyyəti, habelə müvafiq qurumlar tərəfindən təşkil edilən ustad dərslərində təlimçi qismində iştirak etmək kimi öhdəlikləri üzərinə götürür.

# Azərbaycan multikulturalizmi fənninin xaricdə tədrisi davam edir

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Azərbaycan multikulturalizmi fənninin xarici ölkə universitetlərində tədrisi layihəsi davam edir.

Mərkəzdən verilən məlumata görə, layihə çərçivəsində Yaponiyanın Hokkaydo, Türkiyənin Erciyes, Bolqarıstanın K.Oxridski adına Sofiya, Hindistanın Şri Şri və Rumıniyanın Aleksandr İoan Kuza adına Yassı universitetlərində 2024–2025-ci tədris ilində fənnin tədrisinə yenidən start verilib.

Tədrisi Türkiyədə professor Qafar Mehdiyev, Yassı Universitetində Azərbaycan Multikulturalizm Mərkəzinin direktoru professor Lyudmila Bejenaru, Yaponiyada Hokkaydo Universitetində konfliktologiya elmləri üzrə fəlsəfə doktoru, yaponşünas alim Əlibəy Məmmədov, Bolqarıstanda Kliment Ohridski Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin direktoru Sofiya Şiqayeva, Hindistanda Şri Şri universitetinin müəllimi Kənan Məmmədov aparırlar.

Layihə çərçivəsində Azərbaycan multikulturalizmi fənninin tədris edildiyi universitetlərdə konfranslar, dəyirmi masalar, seminarlar, mühazirələr təşkil olunur. Belə tədbirlərdən biri Rumıniyanın Yassı Universitetində keçirilib. Professor Lyudmila Bejenaru Azərbaycanın multikulturalizm siyasətindən danışıb. Bildirib ki, Azərbaycanın multikulturalizm siyasətinin məqsədi ümumbəşəri dəyərlərə sadiqlik, xalqların etnik, dil və mədəni özünəməxsusluğunun qorunub saxlanılmasına əsaslanır.

BBMM 2015-ci ildən "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici universitetlərdə tədrisi layihəsini həyata keçirir. İndiyədək dünyanın 27 universitetində bu fənn tədris olunub.

# Ölkəmiz hindistanlı kinematoqrafçılar üçün "İlin çəkiliş məkanı" seçilib

Mumbay şəhərində 23-25 oktyabr tarixlərində XI Hindistan Beynəlxalq Film Turizmi Konqresi (IIFTC – India International Film Tourism Conclave) keçirilib.




Türkiyə, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Polşa, İspaniya, Slovakiya, Norveç və digər ölkələrdən film komissiyalarının yer aldığı tədbirdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Kino Agentliyi iştirak edib. Ölkəmizdən "Filmlab.az", "Filmbridge Azerbaijan", "CNF" və "Ultra Production" şirkətləri də IIFTC-yə qatılıb.

Builki konqres ölkəmiz üçün xüsusilə yaddaqalan olub. Mükafatlandırma mərasimində Azərbaycan Hindistandan rejissor və prodüserlər üçün ilin ən populyar çəkiliş məkanı elan edilib.

IIFTC konqresinin rəhbəri Harşad Bhaqvat vurğulayıb ki, son illərdə Azərbaycan ən çox tələb görən çəkiliş məkanlarından birinə çevrilib.

Azərbaycan nümayəndə heyəti ölkəmizdə yaradıcılıq sahələrinin inkişafına dəstək, kino potensialımızın beynəlxalq səviyyədə tanıdılması və yerli kino sənayesinin inkişafına xarici mütəxəssislərin cəlb edilməsi məqsədilə bir sıra görüşlər keçirib. Ölkəmizin həm film çəkilişi məkanı kimi, həm də birgə film istehsal ilə bağlı müzakirələr aparılıb.

Bildirək ki, son iki ildə ölkəmizdə həyata keçirilən "Yaradıcı Azərbaycan" proqramı çərçivəsində müxtəlif layihələrin icrası, Film komissiyasının fəaliyyətinin canlandırılması, xarici istehsalçıların Azərbaycanda çəkilişlərə cəlb olunması yerli kino sənayesinin də inkişafı üçün əhəmiyyət kəsb edir.

№81 (2146)
1 noyabr 2024
www.medeniyyet.az

# Mədəniyyət naziri Ağcabədidə vətəndaşlarla görüşüb

Mədəniyyət naziri Adil Kərimli oktyabrın 30-da Ağcabədi şəhərində vətəndaşlarla görüşüb.



Görüşdən əvvəl nazir Adil Kərimli və Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov şəhərin mərkəzində Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzərək əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən görüşdə Ağcabədi, Ağdam, Bərdə, Tərtər və Laçın rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Vətəndaşlar, əsasən, işlə təmin olunma, mədəniyyət sahəsi ilə bağlı təkliflər, təşəbbüslər, əməyin qiymətləndirilməsi və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Nazir hər bir müraciət üzrə məsələlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib. Şəhid ailələri üzvlərinin və qazilərin qeyd etdikləri məsələlərə diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə qeydiyyata alınaraq nəzarətə götürülüb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu həyata keçirilir. Qəbullarda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciət və təklifləri dinlənilir.

# "Şərqin Füzuli dühası"

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü, Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi, AMEA-nın Mərkəzi Elmi Kitabxanası və Xaçmaz rayon Üçgünqışlaq kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyi çərçivəsində "Şərqin Füzuli dühası" adlı ədəbi-bədii tədbir keçirilib. Çıxışlarda Məhəmməd Füzulinin Azərbaycan anadilli poeziyanın inkişafında rolu barədə söhbət açılıb.



Şairin qəzəlləri səsləndirilib, Cahangir Cahangirovun "Füzuli" kantatası ifa olunub. Füzulinin yubileyinə həsr olunmuş rəsm əsərinin təqdimatı keçirilib.

Tədbirin sonunda Mərkəzi Elmi Kitabxanasının "Füzuli – 530" adlı kitab sərgisinə baxış olub. Yubiley ilində nəşr olunmuş kitablar muzeyə hədiyyə edilib.

***



Salyan Tarix-Diyarşünaslıq Muzeyində Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş "Məni candan usandırdı..." adlı tədbir keçirilib.

Çıxışlarda dahi şairin həyat və yaradıcılığından bəhs edilib, Füzulinin Azərbaycan və dünya ədəbiyyatı tarixində xüsusi yeri olduğu diqqətə çatdırılıb.

Salyan Dövlət Kukla Teatrı və rayon Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən kompozisiyalar və mahnılar təqdim olunub.

# Bölgələrin mədəniyyət mənzərəsi:
## müxtəlif səpkili xəbərlər

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi (RMİ) tərəfindən Sumqayıt şəhərinin yaradılmasının 75 illik yubileyinə həsr olunmuş konsert proqramı təşkil edilib. "Kimyaçı" Mədəniyyət Sarayında keçirilən tədbirdə Sumqayıtın icra başçısı Zakir Fərəcov, digər rəsmilər, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Sarayın foyesində mədəniyyət müəssisələri tərəfindən Sumqayıt şəhərinin 75 illik yubileyinə həsr olunmuş sərgiyə baxış keçirilib.

Tədbir konsert proqramı ilə davam edib. Konsertdə muğam ifaçıları və müğənnilər çıxış ediblər.





***



Qax rayon MKS-nin Cəfər Cabbarlı adına Mərkəzi Kitabxanasında detektiv yazıçı Elbrus Kəlbiyevlə "Sözlə ucalan insanlar" adlı görüş keçirilib. Görüşdə yazıçının həyat və yaradıcılığı ilə bağlı videoçarx təqdim edilib, çıxışlar dinlənilib. Sonda tədbir iştirakçılarının sualları müəllif tərəfindən cavablandırılıb.

***

Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov, idarənin və mədəniyyət müəssisələrinin əməkdaşları Vətən müharibəsi şəhidi Elvin Məmmədovun şəhadətə yüksəlməsinin növbəti ildönümündə ailəsini ziyarət ediblər.

Elvin Eldəniz oğlu Məmmədov 2001-ci il iyunun 25-də Ağdaş şəhərində anadan olub. Vətən müharibəsi zamanı Cəbrayıl istiqamətində yaralı əsgər yoldaşlarını döyüş bölgəsindən çıxararkən qəhrəmancasına şəhid olub. Ölümündən sonra bir sıra medallarla təltif edilib.

***



Şərqi Zəngəzur RMİ-nin tabeliyindəki bir sıra mədəniyyət müəssisələrində 25 oktyabr – Qubadlı Şəhəri Günü ilə bağlı tədbirlər keçirilib. Tədbirlərdə vətənpərvərlik ruhlu musiqi nömrələri ifa edilib, şeirlər söylənilib.



***

Lerik Rayon İcra Hakimiyyəti, rayon Polis şöbəsi, Mədəniyyət Mərkəzi və 1 nömrəli texniki fənlər təmayüllü məktəb-liseyin birgə təşkilatçılığı ilə "Narkomaniya, erkən nikah və kibercinayətkarlıqla mübarizə" mövzusunda maarifləndirici tədbir keçirilib. Mövzu ilə əlaqədar maarifləndirici qısa filmlər nümayiş olunub.

***

Qazax rayon MKS-nin Elmar Hüseynov adına Mərkəzi Kitabxanasında "Narkomaniya sərhədsiz fəlakətdir" adlı dəyirmi masa keçirilib. Çıxışlardan sonra narkomaniyanın fəsadlarından bəhs edən videoçarx nümayiş etdirilib.

***

Cəlilabad rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı, Cəlilabad Xalq teatrı aktyorlarının iştirakı ilə "Zəfər yolu" tamaşası nümayiş olunub. Rayon Heydər Əliyev Mərkəzinin səhnəsində nümayiş olunan tamaşanı şəhid ailələri, qazilər, Lənkəran-Astara RMİ-nin Cəlilabad rayonu üzrə nümayəndəsi Fuad Əzizov, idarə və müəssisə rəhbərləri izləyiblər.

***

Masallı rayon Mərkəzi Kitabxanasında tanınmış şair, ictimai xadim Əli Tudənin (1924-1996) 100 illiyi münasibətilə tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, Əli Tudə milli ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olmaqla yanaşı, ictimai-siyasi xadim, inqilabçı kimi tarixdə iz qoyub. Cənubi Azərbaycanda qurulan Milli Hökumət süqut etdikdən (1945) sonra siyasi mühacir həyatı yaşayan şair dünya azərbaycanlılarının yaddaşında azadlıq carçısı kimi xatırlanır.



**Hazırladı: N.Məmmədli**

# "Öyrədərək öyrənirəm" – Füzuli teatrında ustad dərsləri

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2021-ci ildən həyata keçirilən "Öyrədərək öyrənirəm" layihəsi davam edir. Ötən dövrdə layihə üzrə tanınmış incəsənət xadimlərinin iştirakı ilə ustad dərsləri təşkil olunub.



Layihə çərçivəsində Akademik Rus Dram Teatrının rejissoru Abdulla Elşadlı Füzuli Dövlət Dram Teatrında ustad dərsləri keçib. Onun M.F.Axundzadənin "Aldanmış kəvakib" əsəri əsasında quruluş verdiyi tamaşaya ictimai baxış olub.

Nazirliyin əməkdaşlarının da izlədiyi tamaşadan sonra layihənin əhəmiyyəti vurğulanıb, təlim və tamaşanın hazırlanma prosesindən bəhs edilib.

Rolları Emin Abışov, Asif Şirinov, Qorxmaz Qarayev, Sevinc Məmmədova, Əli Hüseynov, Elçin Məmmədov, Zamin Quliyev, Vüsal Həsənov, Qəlbinur Əhmədli, Vüqar İsmayılov və b. ifa ediblər. Tamaşanın quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Şəms Kazımzadədir.

# Mingəçevirdə Zəfər Gününə həsr olunmuş sərgi

Oktyabrın 25-də Mingəçevir Turizm Kollecində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş şəhidlərin xatirə əşyalarından ibarət sərgi təşkil edilib. Sərgidə 50-dən çox şəhid qəhrəmanın şəxsi əşyaları nümayiş etdirilib.

Əvvəlcə şəhid valideynləri ilə çay masası arxasında görüş keçirilib.

Mingəçevir Turizm Kollecinin direktoru Kamal Əhmədov sərginin ərsəyə gəlməsində köməklik göstərən şəhid valideynlərinə dərin minnətdarlığını bildirib.

Tədris işləri üzrə direktor müavini Aynurə Abbasova, Tədris şöbəsinin müdiri, tarix müəllimi Ceyhun Abdullayev kollecin tələbələrinin layiqli vətəndaş kimi yetişdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıblar. Sərginin də bu məqsədə xidmət etdiyi bildirilib.

Kollecin müəllimi, Vətən müharibəsi iştirakçısı Muraz Məmmədov döyüş yolundan, müharibə günlərində xalqımızın nümayiş etdirdiyi birlik və bərabərlikdən söz açıb.

Sonra sərgiyə baxış keçirilib. Şəhid valideynləri stendlərə yaxınlaşan gənclərə öz övladları və onların döyüş yolu barədə məlumat veriblər.

# Tanrı quşu gəlməsə də...



İnsan istədiyi hər şeyi edə bilər, amma hər şeyi istəyə bilməz. O, yaradılışından həm azad, həm də qadağalar dolu dünyanın məhbusudur. Hər zaman istədiklərini düşünməkdə sərbəst, realizədə isə...

Hər şey bu qədər aydındırsa, daxilən niyə daim mübarizə apardığımızı zənn edirik? Onsuz da sonda çoxumuz Heminqueyin "Qoca və dəniz"inin qəhrəmanı kimiyik. Qoca dənizçi 84 dəfə dənizdən əliboş qayıtmışdı. O, 85-ci gün, nəhayət, balıq tutur. Nə qədər çalışsa da, tutduğu balığı sahilə gətirə bilmir. Səhər açılanda yenə dənizə çıxır. Özü ilə, dənizlə, lap sudan çıxınca öləcək balıqla barışmaq üçün. Ağır mətləbdir. Heminquey deyir ki, insanı öldürmək olar, amma məğlub etmək mümkün deyil.

Bu mənada biz, əslində, təslim olanda, ya da günahlarımızla barışmayıb, daha böyük günahlar işlədəndə öz gücümüzü və həm də nə qədər gücsüz olduğumuzu anlayırıq. Özümüzə qayıtmaq üçün yola çıxırıq. Hesab edirik ki, Yaradandan göndərilən bütün vasitələr əlinizdən tutacaq. Amma o "əl" sizi ya işığa aparacaq, paklayacaq, ya da sıx meşədə azdırıb, gözlərinizi tökəcək. O zaman köməyinizə gələn olmayacaq. Süleymanı unudan Tanrı quşu kimi...

Zəngin yaradıcılıq yolu və aktyor heyəti ilə daim diqqəti cəlb edən, bölgə teatrları içərisində öz dəst-xəttini qoruyub saxlamağı bacaran Lənkəran Dövlət Dram Teatrının kollektivi iki gün paytaxt Bakıda qastrolda oldu. Akademik Milli Dram Teatrının səhnəsində "Tanrı quşu gəlmədi" (29 oktyabr) və "Casus" (30 oktyabr) oynanıldı.

Birinci tamaşa teatrın premyerasıdır. Nümayiş Akademik Milli Dram Teatrının "Bölgə teatrlarının Bakı premyeraları" layihəsi çərçivəsində gerçəkləşdi və layihəyə digər teatrlar da qoşulacaq.

Bölgə teatrlarının yaradıcı həyatını stimullaşdırmaq, gənc rejissorların quruluş verdiyi tamaşaları paytaxt tamaşaçılarına təqdim etmək məramlı layihə Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

Gələk tamaşaya. Gənc yazıçı Cavid Zeynallının "Tanrı quşu gəlmədi" pyesi əsasında Lənkəran teatrının baş rejissoru Anar Babalının quruluş verdiyi bu nümunə günah, qisas və yalan haqqında hesablaşma da hesab oluna bilər.

Psixoloji dram janrındakı ikihissəli tamaşanın quruluşçu rəssamı Tərlan Sadıqov, bəstəkarı Aydan Əliyevadır. Tamaşada istifadə olunan mahnının sözləri Banu Muharremindir.

Rolları Xalq artisti Qabil Quliyev, aktyorlar Qızılgül Quliyeva, Saleh Əzimzadə, Gülər Kərimova, Elçin Hacı, Əlizamin Abbasov və İmaməli Əsgərov oynayırlar.

Tamaşanın annotasiyasında da qeyd olunduğu kimi, "Tanrı quşu gəlmədi" öz ilkin və həqiqi mahiyyətindən qopan, mənəvi xilasını keçmişdə, uşaqlığında axtaran Süleyman Əfəndiyevin faciəvi taleyindən bəhs edir.

Doğulduğu kənddə onun bütün keçmiş günahlarından xəbərdar olan sonuncu adam ölləndən sonra Süleyman (Q.Quliyev) kəndə qayıtmağa qərar verir. Burada onu çox şey gözləyir: doğulduğu və indi ömrünün ixtiyar çağında sığınmaq istədiyi ev, doğmalarının xatirəsi, həyatını məhv etdiyi qadının qisası, ondan üz döndərən Tanrı quşu...

Süleymanın övladlığa götürülmüş (əslində isə doğma) içki düşkünü oğlu Mustafa (S.Əzimzadə) isə evin satılmasının, onun kəndə qayıtmağının əleyhinədir. Evdə bir də illərdir övlad həsrəti ilə yaşayan və bütün gəncliyini əyyaş ərə fəda etdiyini anlayan, amma Süleyman dədəyə görə evdə qalan, Mustafadan boşanmayan, bəlkə də gedəcək yeri olmayan Aynur (G.Kərimova) var. Ailənin həkim dostu, Mustafanın tək arxalandığı Toğrul (E.Hacı) da bu ailənin qaranlığına işıq sala bilmir.

Məişət məsələsi kimi sadə görünən bu alqı-satqı konflikti tamaşada bir çox həqiqətlərin – yalan və günahların üzərini işıqlandırır, sevgidən doğulmayan insanın bədbəxtlik girdabında necə çırpındığını tamaşaçıya göstərir.

Süleyman son arzusuna çatır: kəndə qayıdır. Amma həyatının acı həqiqətləri ilə üz-üzə qalır. Onun yolunu gözləyən Əlamət qarı (Q.Quliyeva) ona bütün həqiqəti danışır. Zorakılıqdan doğulan Mustafanın Süleymanın doğma oğlu olduğunu deyir. Həqiqətin ağırlığından sarsıntı keçirən Süleyman ölümü axtarır. Tanrı quşunun sorağı ilə ölümünə gedir və qovuşmaq istədiyi Tanrı quşunun qurbanına çevrilir. Əlamət qarı da, Süleyman da – Mustafanı sevgisiz buraxan iki günahkar da ölür. Amma Mustafa yenə günahkardır. Çünki arvadının bətninə düşən uşaq da onun kimi sevgisiz, arzusuz peyda olub. Deməli, mütləq bir günah və ondan arınmaq hissi peyda olacaq. Onu yumaq üçün də quş, ağac, ya da hansısa başqa büt seçiləcək. Sonda tapınılan büt ona tapınanı qurbana çevirəcək.

Tamaşa boyu seçilmiş Tanrı quşu bizə, əslində, vicdan obrazını təqdim etdi. İnsanın vicdanı nə zaman oyanır? Haqqı axtaranda. Süleyman o haqqı tapdımı? Tapdı. Quş dilini bilməsə də, öz həqiqətini ona izhar elədi. Cavabında isə cəzasını aldı...

Tamaşanın quruluş həlli və aktyor ansamblı haqqında qısaca onu deyə bilərəm ki, nümunənin quruluşu natamam idi və rejissor onu bir aktyorun oyunu prinsipi ilə işləyib. Səhnənin texniki imkanlarından aktyor potensialına bölgü prinsipi isə, demək olar ki, unudulub. Kəskin səslənə bilər, amma mən Q.Quliyevin ifasında gözəl bir radiotamaşa, Q.Quliyevanın ifasında isə təsirli psixoloji monooyun izlədim...

**Həmidə Nizamiqızı**

# Mədəniyyət Nazirliyi tərəfindən tələbə filmlərinin istehsalına dəstək göstəriləcək

## Nazirin ADMİU kollektivi ilə görüşündə bir sıra aktual məsələlər qaldırılıb




Mədəniyyət naziri Adil Kərimli oktyabrın 25-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kollektivi ilə görüşüb.

Görüşdə nazir universitetin zəngin ənənələrinin olduğunu, məzunlarının mədəniyyətimizin inkişafına mühüm töhfələr verdiklərini deyib.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, bütün sahələr kimi, mədəniyyətin də inkişafına xüsusi diqqət yetirilir. O cümlədən sahə üzrə pedaqoji kollektivlərin əməyi qiymətləndirilir, müəllimlər təltif və mükafatlara layiq görülürlər.

Bildirilib ki, Mədəniyyət Nazirliyi tərəfindən bu sahədə kadr hazırlığına böyük əhəmiyyət verilir və Elm və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq mövcuddur. Çünki hər bir sahədə keyfiyyətin yüksəldilməsi bilavasitə kadr hazırlığı ilə bağlıdır. Bu istiqamətdə inkişafa nail olmaq üçün gənclərin maraqlarını, seçdikləri ixtisaslar haqqında fikirlərinin nədən ibarət olduğunu öyrənmək vacibdir. Hazırda sürətli innovativ yeniliklərə şahid olsaq da, süni intellekt inkişaf etsə də, mədəniyyət sahəsi sırf insan amilinə, istedadlı, bacarıqlı və ixtisaslı kadrlara bağlıdır.

Görüşdə diqqətə çatdırılıb ki, Mədəniyyət Nazirliyi mədəniyyət və yaradıcı sənayelər (MYS) üzrə kadr potensialının inkişaf etdirilməsini prioritet hesab edir. Bu məqsədlə elan olunan təqaüd proqramı çərçivəsində ilk olaraq 20 tələbənin xaricdə bakalavriat və magistratura səviyyələrində təhsilinə dəstək veriləcək.

Kino sahəsinin inkişafından da danışan nazir ötən il Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) ilə birgə dövlət sifarişi və dəstəyi ilə istehsal ediləcək film layihələri müsabiqəsinin keçirildiyini deyib. Qeyd edib ki, bu müsabiqə vasitəsilə 40-dan çox film istehsalata buraxılıb. Nazirlik tərəfindən tələbə filmlərinin istehsalına da dəstək göstəriləcək.

Görüşdə ADMİU-nun rektoru Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudova kadr hazırlığının çox vacib məsələ olduğunu söyləyib, təhsil ocağı ilə ARKA arasında əməkdaşlıqla bağlı müqavilə imzalandığını deyib. Vurğulayıb ki, bu müqavilə nəticəsində 12 film layihəsi üzrə işlərə başlanılıb. Onlardan 6-sı ekranlaşdırılıb, qalan 6 layihə isə çəkiliş prosesindədir. Bu layihələrdən ADMİU-nun tələbəsi Kamal Müşfiq İbadovun "Motivator" filmi Sergey Gerasimov adına Ümumrusiya Dövlət Kinematoqrafiya Universitetinin təşkilatçılığı ilə Moskvada keçirilən "Yüksəliş" beynəlxalq tələbə film festivalında "Ən yaxşı sənədli film rejissoru" nominasiyasında mükafata layiq görülüb. Həmçinin ADMİU festivalda fəal iştirakına görə diplomla təltif edilib.

Sonra nazir dərslik və dərs vəsaitlərinin nəşri, aktyorlara təyinatın verilməsi, gənclərin kino sahəsinə marağının artırılması, magistratura səviyyəsində təhsil, yeni ixtisaslar və s. mövzularda təklifləri dinləyib, müvafiq sualları cavablandırıb.

Pedaqoji heyətin dərslik və dərs vəsaitlərinin nəşri ilə bağlı məsələ barədə danışan nazir bildirib ki, Mədəniyyət Nazirliyi hər il ölkə nəşriyyatlarından kitabların satın alınmasını həyata keçirir. Ötən ildən nəşriyyatlardan daha çox elmi və elmi-kütləvi kitablar alınır və respublika kitabxanalarına paylanılır.

Mədəniyyət Nazirliyi tərəfindən aktyorlara təyinatın verilməsi təklifi ilə bağlı bildirilib ki, hər il ADMİU-nun Teatr sənəti fakültəsindən 60-a yaxın tələbə məzun olur: "Həmin məzunların müvafiq teatrlarda yerləşdirilməsinə çalışmalıyıq. Bu prosesdə özəl teatrların da təşviq edilməsi vacibdir".

Gənclərin kino sahəsinə marağının artırılması ilə bağlı danışan Adil Kərimli bildirib ki, ölkəmizdə kino istehsalının genişləndirilməsi istiqamətində addımlar atılır, tələbə filmlərinə də dəstək verilir.

Görüş zamanı səsləndirilən təkliflərdən biri də ADMİU tələbələrinin teatrlara ödənişsiz girişi işi ilə bağlı olub. Nazir qeyd edib ki, bu istiqamətdə müəyyən işlər görülür. "TələbəPlus" layihəsi çərçivəsində Mədəniyyət Nazirliyi ilə Təhsilin İnkişafı Fondu arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, teatr, muzey və qoruqlarda tələbələr üçün xüsusi endirimlərin tətbiq olunması gözlənilir.

Magistratura pilləsi və yeni ixtisaslarla əlaqədar söz açan nazir son illərdə ölkəmizdə təhsilin normativ-hüquqi bazasının təkmilləşdirildiyini, maddi-texniki təminatın yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlərin görüldüyünü söyləyib.

**Nurəddin**

# Nazir Akademik Opera və Balet Teatrının kollektivi ilə görüşüb




Mədəniyyət naziri Adil Kərimlinin ölkəmizin aparıcı teatrlarının kollektivləri ilə görüşləri davam edir. Görüşlərdə mədəniyyət ocaqlarının cari fəaliyyəti, qarşıya qoyulan yaradıcı vəzifələr müzakirə olunur.

Oktyabrın 26-da nazir Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında olub, kollektivlə görüşüb.

Görüşdə teatrın direktoru Xalq artisti Yusif Eyvazov, baş rejissor Əməkdar incəsənət xadimi Hafiz Quliyev, baş dirijor Əməkdar artist Əyyub Quliyev, aparıcı səhnə ustaları – Xalq artisti Gülağası Mirzəyev, Əməkdar artistlər Afaq Abbasova, Tural Ağasıyev, Cahangir Qurbanov, solistlər Mahir Tağızadə, Taleh Yahyayev, Ataş Qarayev, Mütəllim Dəmirov və başqaları çıxış edərək teatrın yaradıcı fəaliyyətinin mövcud vəziyyətindən söz açıblar.

Kollektivin üzvləri incəsənət xadimlərinin maddi rifahının yaxşılaşdırılması, onların güzəştli şərtlərlə mənzillərə sahib olması, istismar müddəti bitmiş musiqi alətlərinin yeniləri ilə əvəz olunması, balet artistlərinin təqaüdə çıxması və hərbi xidmətə çağırılması problemləri, musiqiçilərin dövlət tədbirlərində çıxışları üçün qonorarların ödənilməsi, fəxri adların verilməsi, yeni əsərlərin tamaşaya qoyulması kimi məsələlər diqqətə çatdırılıb.

Söhbət zamanı ötən əsrdə Azərbaycan bəstəkarlarının yazdığı əsərlərin yenidən redaktəsi və klavirlərin çap olunması, yaradıcı şəxslərin xarici ölkələrdə keçirilən müsabiqə, festival və seminarlarda iştirakı üçün şəraitin yaradılması və s. mövzular da müzakirə olunub.

Nazir qaldırılan məsələlərlə bağlı fikirlərini bölüşüb.

Qeyd olunub ki, Prezident İlham Əliyev tərəfindən mədəniyyətin müxtəlif istiqamətləri ilə yanaşı, teatr sahəsinin də inkişafına qayğı göstərilir. Teatrların maddi-texniki bazası möhkəmləndirilir. İncəsənət ustaları fəxri adlara, mükafatlara layiq görülürlər. Akademik Opera və Balet Teatrı binasının əsaslı təmiri də bu diqqətin təzahürüdür.

Nazir qeyd edib ki, hazırda mədəniyyət sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi ilə əlaqədar addımlar atılır. Bu proses başa çatdıqdan sonra bir sıra məsələlər həllini tapacaq.

Görüşün sonunda Adil Kərimli səsləndirilən müraciətlərin diqqətdə saxlanılacağını deyib, kollektivə yaradıcılıq uğurları arzulayıb.

# Xalq artisti Lyudmila Duxovnaya təltif olunub

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aparıcı səhnə ustası, Xalq artisti Lyudmila Duxovnaya Mədəniyyət Nazirliyinin fəxri diplomu ilə təltif olunub.



Aktrisa ölkəmizdə teatr sənətinin inkişafındakı xidmətlərinə və anadan olmasının 80 illiyi münasibətilə bu təltifə layiq görülüb.

Fəxri diplom oktyabrın 26-da Akademik Rus Dram Teatrının "Çexov tüfəngi" tamaşasının (müəllif və quruluşçu rejissor İlqar Safat) premyerası zamanı mədəniyyət naziri Adil Kərimli tərəfindən yubilyara təqdim edilib.

Aktrisanı yubiley münasibətilə təbrik edən nazir onun ömrünün böyük bir hissəsini səhnə sənətinə həsr etdiyini bildirib, yaratdığı maraqlı obrazlar qalereyası ilə tamaşaçıların rəğbətini qazandığını deyib.

Lyudmila Duxovnaya fəaliyyətinə verilən dəyərə görə nazirə təşəkkürünü bildirib.

Qeyd edək ki, Lyudmila Semyonovna Duxovnaya 1944-cü il oktyabrın 23-də Bakıda anadan olub. 1965-ci ildə Teatr İnstitutunu (indiki ADMİU) bitirib. 1964-cü ildən Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında fəaliyyət göstərir. Aktrisa teatrda, eləcə də kinoda 120-dən çox obraza həyat verib, məharətli oyunu ilə tamaşaçıların yaddaşında iz qoyub. "Əməkdar artist" (1978), "Xalq artisti" (1991) fəxri adlarına layiq görülüb. Azərbaycanda teatr sənətinin inkişafındakı xidmətlərinə görə Lyudmila Duxovnaya 2019-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib. O, həmçinin Teatr Xadimləri İttifaqının "Qızıl dərviş" mükafatçısıdır.

# Niyazi muzeyinin 30 illiyinə həsr edilmiş konsert

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyi bu il 30 yaşını qeyd edir. Bu münasibətlə oktyabrın 28-də muzeydə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) ilə birgə konsert keçirilib.



Konsertdən əvvəl qonaqlar muzeyin foyesində yeni hazırlanmış "Muzeyin tarixindən" adlı fotosərgi ilə tanış olublar.

Niyazinin Mənzil-Muzeyinin müdiri Əməkdar mədəniyyət işçisi Rza Bayramov giriş sözü söyləyib. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin şöbə müdiri Xanım Abdinova muzeyin fəaliyyət göstərdiyi illərdə görülən işlər, əldə olunan nailiyyətlər haqqında söz açıb. Çıxışlar muzeyin kolleksiyaları əsasında hazırlanmış slayd-şou ilə müşayiət olunub.

Konsertdə BMA-nın professoru, Xalq artisti Ülviyyə Hacıbəyova və onun tələbələri Zöhrə Ramazanlı, Kənan Xəlilzadə, Natəvan Səlimova, Samirə Kazımlı, Səma Mustafayeva, Leyla Babayeva çıxış ediblər. Bəstəkarlar Zülfüqar Hacıbəyov, Qara Qarayev, Zakir Bağırov, Niyazi, Fikrət Əmirov, Arif Məlikov, Fərhad Bədəlbəyli və Mehriban Əhmədovanın əsərlərindən ibarət musiqi proqramı təqdim edilib.

# "Zığ" tablosu Dünya Bankını bəzəyəcək

"Sevinc hissi ilə həmvətənlərimi təbrik edirəm. Dünya Bankı (The World Bank) ilk dəfə olaraq Azərbaycan rəssamının əsərlərini əldə edib.




Dünya Bankının Vaşinqton şəhərində yerləşən baş ofisinin direktorunun kabinetinin girişində hazırda mənim iki əsərim asılıb. Bu, bütövlükdə Azərbaycanımızın nailiyyətidir, yüksək mədəniyyətimizin və dünya birliyinə inteqrasiyasının göstəricisidir".

Bu sözlər rəngkarlıq sənətimizin, Abşeron rəssamlıq məktəbinin canlı klassiklərindən biri, Əməkdar rəssam Eldar Qurbanova məxsusdur.

Mədəniyyət aləmimizə gələn bu müjdə, şübhəsiz ki, sevindirici və qürurverici hadisədir. Eldar müəllim "Mədəniyyət" qəzetinə bu hadisənin təfərrüatını danışdı:

"İki ay əvvəl Dünya Bankının nümayəndəsindən zəng gəldi. Zəng edən şəxs bildirdi ki, Dünya Bankı Azərbaycan rəssamlarından birinin əsərini əldə etmək niyyətindədir. Seçim üçün bir neçə əsərimi onlara göndərməyimi istədilər. Mənzərə tabloları istədikləri üçün bu janrda olan 10 əsərimi seçib onların fotoşəkillərini göndərdim. Bir neçə gündən sonra Dünya Bankı mənə müqavilə göndərdi. Müqavilədə Dünya Bankının iki tablomu əldə etmək istəyi qeyd edilmişdi. Razılaşdıq, müqaviləni imzaladım, müqavilə ilə birlikdə tabloların özünü də çərçivəsiz halda göndərdim".

Qeyd edək ki, Dünya Bankının seçimi çox məntiqli olub: tablolardan biri Amerikanın təbiətinin, digəri isə Azərbaycanın, Abşeron yarımadasının qəsəbələrindən birinin təsviridir.

Eldar Qurbanov "Qudzon çayının sahilləri"ni (97x97) 2002-ci ildə, "Ziğ" tablosunu (60x80) isə 2010-cu ildə çəkib.

Beləliklə, Dünya Bankının Vaşinqtondakı baş ofisində ilk dəfə Azərbaycan rəssamının əsəri göz oxşayacaq.

Eldar Qurbanov 1948-ci il yanvarın 20-də Bakıda anadan olub. Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində və Azərbaycan Pedaqoji İnstitutunda (bədii qrafika) təhsil alıb. 1989-cu ildə Xəzəryanı respublikaların biennalesində "Şair və ilham pərisi" əsərinə görə I dərəcəli diploma layiq görülüb. Əsərləri Amerika, Avropa və Asiyanın bir sıra şəhərlərində sərgilərdə maraqla qarşılanıb. 2002-ci ildən respublikanın Əməkdar rəssamıdır.

**Samirə**

# "Yatmış gözəl" baleti ilə bağlı təqdimat-dərs

Bakı Xoreoqrafiya Akademiyası (BXA) tam orta təhsil pilləsinin şagirdlərinə rus bəstəkarı Pyotr Çaykovskinin "Yatmış gözəl" baletinə həsr olunmuş təqdimat-dərs keçirilib.

Təqdimatda BXA-nın rəhbərliyi, müəllim və şagird heyəti iştirak edib.

Şagirdlərə "Yatmış gözəl" baletinin (1889) yaranma tarixi haqqında Azərbaycan və rus dillərində ətraflı məlumat verilib. Baletin məzmunu, ümumilikdə təhlili verilməklə yanaşı, şagirdlərin ifasında əsas partiya və variasiyalar videokadrlar şəklində nümayiş etdirilib. Təqdimat çərçivəsində baletdən musiqi hissələri tam orta təhsil pilləsi şagirdinin ifasında pianoda səsləndirilib.

Sonda "Yatmış gözəl" baleti ətrafında şagirdlərin bilik və mənimsəmə qabiliyyətini yoxlamaq məqsədilə sual-cavab aparılıb.

# "Baladadaşın toy hamamı"nın Qəzənfəri

## Növbəti tamaşa Möylə Mirzəliyevin 65 illiyinə həsr olunub

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq yazıçısı Elçinin hekayələri əsasında hazırlanmış "Baladadaşın toy hamamı" lirik komediyasının növbəti tamaşası (26 oktyabr) tanınmış aktyor Möylə Mirzəliyevin 65 illik yubileyi münasibətilə oynanılıb.



Aktyorun həyat və yaradıcılığı barədə danışan teatrın direktor müavini sənətşünaslıq üzrə fəlsəfə doktoru Vəfa Mühacirova Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanını ona təqdim edib.

Möylə Mirzəliyev "Baladadaşın toy hamamı" tamaşasında 62-ci dəfə Qəzənfər obrazı ilə səhnəyə çıxıb.

Digər rolları Xalq artisti Fatma Mahmudova, Əməkdar artistlər Nahidə Orucova, Çingiz Əhmədov, Nadir Xasiyev, Prezident mükafatçıları Mehriban Zaliyeva, Hüseyn Əlili, aktyorlar Əmrah Dadaşov, Ülviyyə Əliyeva, Gültac Əlili, Şaban Cəfərov, Əliməmməd Novruzov, Fərid Rzayev, Elxan İsmayılov, Gülçöhrə Abdullayeva, Rəsmiyyə Nurməmmədova, Elnarə Nağdəliyeva, Cəbrayıl Cəbrayılov, Telli Hüseynova, Elməddin Dadaşov, Nigar Qarayeva, balaca aktyor Miruğur Əlili ifa ediblər.

Səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, bəstəkarı Firudin Allahverdi, hekayələri səhnələşdirən Əməkdar artist Nofəl Vəliyev, quruluşçu dirijor Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, səhnə tərtibatçısı mərhum Xalq rəssamı Tahir Tahirov, baletmeysterləri Əməkdar artistlər Leyla və Zakir Ağayevlər, musiqi rəhbəri Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyovdur. Tamaşada səslənən mahnıların sözləri Vüqar Əbdülova məxsusdur.

İbrahim Topçubaşov – 100

# Görkəmli cərrah, həvəskar bəstəkar



Noyabrın 5-də görkəmli səhiyyə xadimi, tibb elmləri doktoru, professor İbrahim Topçubaşovun anadan olmasının 100 illiyi tamam olur.

İbrahim Mustafa oğlu Topçubaşov 1924-cü ildə Bakı şəhərində dünyaşöhrətli cərrah akademik Mustafa bəy Topçubaşovun ailəsində anadan olub. Anası Reyhan xanım respublikamızın ilk maarifpərvər, rəssam-miqişünas qadınlarındandır. Teatr rəssamı kimi fəaliyyəti ilə yanaşı, o həm də Azərbaycan Rəssamlar İttifaqının sədr müavini vəzifəsində işləyib. Atası Mustafa bəy Topçubaşov isə ölkəmizin tanınmış novator cərrahlarından olmaqla ictimai və dövlət xadimi kimi məşhur idi.

İbrahim Topçubaşov 1941-ci ildə Bakı şəhər 16 saylı orta məktəbini əla qiymətlərlə bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Müalicə-profilaktika fakültəsinə daxil olub, 1946-cı ildə oranı fərqlənmə diplomu ilə bitirib.

1950-ci ildə klinik ordinaturanı başa vuraraq 1953-cü ilə kimi Quba Rayon Xəstəxanasında Cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışıb. Qəlbi doğma xalqına xidmət etmək arzusu ilə döyünən İ.Topçubaşov bu müddətdə həkimlik vəzifəsini şərəflə yerinə yetirməkdən əlavə, rayonun ictimai həyatında da fəal iştirak edib.

Hələ tələbəlik illərindən elmi işə böyük maraq göstərən İ.Topçubaşov 1951-ci ildə "Analgezin keyitməsi zamanı xəstələrin sinir-psixi duyğuları" mövzusunda namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası müdafiə edib. 1953–1958-ci illərdə isə Maştağa qəsəbə xəstəxanasının cərrahiyyə şöbəsində müdir olub.

İ.Topçubaşov 1958-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Fakültə cərrahlığı kafedrasına dosent seçilib və 1963-cü ilədək bu vəzifədə çalışıb. Alim elmi-tədqiqatlarını davam etdirərək 1961-ci ildə "Mədəaltı vəzi və fater məməciyinin xərçəngi" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib, 1963-cü ildə işlədiyi kafedranın professoru seçilib.

İ.Topçubaşov geniş dünyagörüşünə, müstəsna istedada və dərin zəkaya malik idi. O, gərgin əməyi və böyük işgüzarlığı ilə hamını valeh edirdi. Məhz bunun nəticələridir ki, İ.Topçubaşov cərrahlığın müxtəlif sahələrində (abdominal və torakal cərrahlıqda, neyrocərrahlıqda, urologiyada) eyni qüvvə ilə müvəffəqiyyətlə işləyirdi.

***

Alim eyni zamanda həvəskar kimi də fəaliyyət göstərirdi. Onun bəstələdiyi "Süfrə", "İntizar", "Anacan", "Görüş", "Hamıdan göyçək", "Mən həmişə səninləyəm", "Qubalı qız", "Söz olmasaydı", "Ərəb qızına", "Karvan", "Xəzərim" , "Narınc", "Oyan, gözəlim", "Pambığım" və s. mahnılar bu gün də müğənnilərimizin repertuarını bəzəyir, radio və televiziya ilə tez-tez səsləndirilir. Onun mahnıları Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrdə də müəllifinə şöhrət qazandırır. İ.Topçubaşov 1968-ci ildə Türkiyədə olarkən "Dağlarda duman gözəldi" mahnısı Nesrin Sipahi tərəfindən ifa olunur və müğənni həmin mahnını İranda yazılmış bir valdan götürdüyünü qeyd edir.

İ.Topçubaşova görə, təbabətlə musiqi arasında getdikcə yaxınlıq daha da artır. Müsbət musiqi emosiyası qorxaqlığı, kədəri, kinliliyi dəf edir, insana həyat eşqi, yaşamaq həvəsi verir. Alim-bəstəkarın musiqi əsərləri Tehranda, İstanbulda, Qahirədə və s. şəhərlərdə lentə, vala köçürülərək əbədiləşdirilib.

Musiqinin cərrahiyyədə tətbiqi İ.Topçubaşovu daim düşündürən problem idi. Təbabət tarixində I Dünya müharibəsinə qədər ilk dəfə Bexterev musiqinin müxtəlif xəstəliklərə təsiri məsələlərini öyrənmişdi. Musiqinin cərrahiyyə otağında Keyn (1914), Kirşner (1931) Çikaqo universitet klinikasında (1948–1954-cü illər) tətbiq olunması İ.Topçubaşovu bu sahədə ümidləndirir, musiqinin cərrahiyyədə tətbiqi ideyasını yaradır. Əməliyyata qədərki dövrdə qorxu və həyəcan hissini, yuxusuzluğu, ümumi narahatlığı musiqi vasitəsilə aradan götürməklə əməliyyatdan sonrakı dövrün qənaətbəxş keçməsinə nail olunur. Əməliyyat otağına musiqini verərkən xəstənin musiqi zövqünün nəzərə alınması, musiqini eşitmə diapazonu, elektroensefaloqrafiya, elektrokardioqrafiya, hemodinamiki göstəricilər, tənəffüs tezliyi və s. öyrənilib. Alim 1965-ci ilin may ayında cərrahların Moskvada keçirilən ümumittifaq qurultayında "Təbabət və musiqi" mövzusunda çıxış etmiş və onun tədqiqatları maraqla qarşılanmışdı.

İ.Topçubaşov 140 elmi əsərin, 4 monoqrafiyanın, 4 səmərələşdirici təklifin və ixtiranın, 16 000-ə qədər kiçik və böyük həcmli cərrahi əməliyyatın müəllifidir. O, Moskva, Sankt-Peterburq, Bratislava, Praqa, Tokio, Roma, Budapeşt, Buxarest, İstanbul, Ankara və başqa şəhərlərdə Azərbaycan və keçmiş sovet cərrahlığını dəfələrlə layaqətlə təmsil edib. Görkəmli səhiyyə xadiminin 1968-ci ildə Türkiyə Səhiyyə Nazirliyi, Ankara Tibb Universiteti və Türkiyə Onkoloji Cəmiyyətinin dəvəti ilə qardaş ölkəyə səfəri xüsusilə yaddaqalan olub. İ.Topçubaşov Ankara, İstanbul, İzmir universitetlərində bir ay ərzində 10 mühazirə oxumalı idi. Lakin SSRİ səfirliyindən onun səfər müddətinin 15 gün uzadılması xahiş olunur. Türkiyə Onkoloji Cəmiyyətinin "Kanser haberleri" jurnalının 1968-ci il noyabr nömrəsi bütünlüklə onun Türkiyədə olduğu 45 günlük fəaliyyətinə həsr edilir.

O, Türkiyədə oxuduğu 24 mühazirənin qonorarını həmin universitetlərin cərrahiyyə klinikalarının hesabına köçürür.

İ.Topçubaşovun türkiyəli Məcid bəy Doğru, Mühiddin Ülkər, İzzət Kantemir kimi tibb alimləri ilə 1966-cı il Tokioda keçirilən XII Ümumdünya onkoloqlar konqresində tanışlığı sonradan möhkəm dostluğa çevrilir. Daha sonra görkəmli pediatr, professor İhsan Doğramacı ilə dostluq əlaqələri yaradır.

İtaliya vətəndaşlarına təmənnasız tibbi yardım göstərdiyinə görə İtaliya hökuməti İ.Topçubaşovu ölkənin ən yüksək mükafatlarından sayılan "Haribaldi qızıl medalı" ilə təltif edir. İtaliya Cərrahiyyə Cəmiyyətində "Qoca adamlarda cərrahi əməliyyat zamanı risk", Florensiya Universitetində "Öddaşı xəstəliyi və şəkərli diabet", Sofiya Universitetində (Bolqarıstan) "Xərçəngin əmələ gəlməsində radioaktiv şüaların rolu" mövzularında mühazirələri böyük maraqla qarşılanıb.

İ.Topçubaşov Azərbaycan Cərrahlar Cəmiyyəti idarə heyətinin üzvü, Azərbaycan SSR Səhiyyə Nazirliyi Elmi Tibbi Şurası rəyasət heyətinin üzvü, cərrahlıq üzrə problem komissiyasının sədri, "Eksperimental cərrahiyyə və anesteziologiya" jurnalı redaksiya şurasının üzvü, heronto-cərrahiyyə laboratoriyasının rəhbəri idi. O, Piroqov adına Leninqrad, Vişnevski adına Moskva cərrahiyyə cəmiyyətlərinin üzvü, Rumıniya və Bolqarıstan cərrahiyyə cəmiyyətlərinin, Yan-Purkinye adına Çexoslovakiya Tibb Cəmiyyətinin, Türkiyə Onkoloji Cəmiyyətinin fəxri üzvü olub.

Professor İbrahim Topçubaşov məhsuldar yaradıcılığının coşqun vaxtında 23 fevral 1970-ci ildə, 45 yaşında vəfat edib. Dünyaşöhrətli tibb aliminin parlaq, unudulmaz xatirəsi onu tanıyanların, tibb ictimaiyyətinin, tələbələrinin xatirəsində əbədi yaşayacaq.

**Şəfa Əliyev**
**ATU-nun III cərrahi xəstəliklər kafedrasının dosenti, M.Topçubaşovun Xatirə Muzeyinin rəhbəri**

# Tanınmış opera müğənnisi Şahlar Quliyev vəfat edib



Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Tanınmış opera müğənnisi, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Şahlar Quliyev 2024-cü il oktyabrın 26-da, 78 yaşında vəfat edib.

Şahlar Həsənağa oğlu Quliyev 25 sentyabr 1946-cı ildə Cəlilabad rayonunda anadan olub. İndiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində musiqili komediya aktyorluğu ixtisası üzrə təhsil alıb, daha sonra Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki BMA, professor E.Quliyevanın sinfi) bitirib.

Vokal sənətimizin gözəl səslərindən (bariton) olan Şahlar Quliyev 1975-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti idi. O, 30 ildən artıq aparıcı səhnə ustası – yüksək kateqoriyalı solist-vokalçı kimi teatrın repertuarındakı əksər milli və klassik opera tamaşalarında əsas rollarda çıxış edib. "Leyli və Məcnun"da Nofəl, "Şah İsmayıl"da Aslan şah, "Aşıq Qərib"də Şahvələd, "Sevil"də Atakişi, "Arşın mal alan"da Süleyman, "Gəlin qayası"nda Xan, "Koroğlu"da Həsən xan, "Aida"da Amonasro, "Riqoletto"da Monterone, "Toska"da Skarpia, "Payatsı"da Tonio, "Bohema"da Şonar kimi rollar onun tərəfindən professionallıqla ifa olunub və tamaşaçı rəğbəti qazanıb.

Şahlar Quliyevin vokalçı kimi repertuarında Aslan şah partiyasının xüsusi yeri var. Sənətkar 2016-cı ilin noyabrında Akademik Opera və Balet Teatrında özünün 70 illik yubileyinə həsr olunmuş tamaşada məhz həmin bu rolla səhnədə son çıxışını etmişdi.

Şahlar Quliyevin Azərbaycan mədəniyyətinə, vokal ifaçılıq sənətinə töhfələri dövlət səviyyəsində yüksək qiymətləndirilib. O, 1991-ci ildə respublikanın "Əməkdar artist"i, 2005-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdü. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Şahlar Quliyevin vəfatı ilə əlaqədar sənətkarın ailəsinə və yaxınlarına, eləcə də musiqi və teatr ictimaiyyətinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# Xalq artisti Yaşar İmanov dünyasını dəyişib



Azərbaycan musiqi ictimaiyyətinə ağır itki üz verib. Tanınmış bəstəkar, dirijor, pedaqoq, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Yaşar İmanov oktyabrın 26-da, ömrünün 91-ci ilində vəfat edib.

Yaşar Əbdülxalıq oğlu İmanov 21 mart 1933-cü ildə Bakıda anadan olub. 1954-cü ildə A.Zeynallı adına Musiqi Texnikumunun truba sinfini bitirib. 1958-ci ildə isə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasından hərbi dirijor ixtisası üzrə məzun olub. Təyinatla Gürcüstanın Suxumi şəhərində (Abxaziya MR) pedaqoji fəaliyyətə başlayıb. Suxumi Opera və Balet Teatrında opera tamaşaları qoyub. 1967-ci ildə yaradılan Abxaziya Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru təyin olunub. Eyni zamanda Suxumi Musiqi Texnikumunda xor dirijorluğu şöbəsinin müdiri işləyib. Gürcüstandakı fəaliyyətinə görə bu ölkənin "Əməkdar artist"i adına layiq görülüb.

Yaşar İmanov Azərbaycana qayıtdıqdan sonra 1994–1998-ci illərdə Q.Qarayev adına Dövlət Kamera Orkestrinin, 1998-ci ildən Azərbaycan Radio və Televiziyasının Niyazi adına Simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

Onun bəstəkar kimi də zəngin yaradıcılığı var. Abxaz folkloru əsasında "Hilal gecəsi" adlı opera yazıb. Bundan əlavə, fortepiano və simfonik orkestr üçün "Konsert-ballada", "Xatirə", xor və simfonik orkestr üçün "Kantata" və s. əsərlər ərsəyə gətirib.

Azərbaycan və Gürcüstan Bəstəkarlar İttifaqlarının üzvü olmuş Yaşar İmanov musiqi ilə dolğun ömür yaşayıb.

Azərbaycan Bəstəkarlar İttifaqı Yaşar İmanovun vəfatı ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# Şəhid məzunun adına studiya açılıb



Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Memarlıq fakültəsinin məzunu, 44 günlük Vətən müharibəsi şəhidi Ramil Ağayevin adına studiya açılıb.

Bununla bağlı mərasimdə şəhidin anası Şəhla Ağayeva, atası Ağarəhim Ağayev, həyat yoldaşı Lamiyə Ağayeva, universitet rəhbərliyi, qrup yoldaşları, müəllimlər və tələbələr iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə Memarlıq fakültəsinin birinci mərtəbəsində Ramil Ağayev (1994–2020) və Birinci Qarabağ müharibəsində şəhid olan tələbə Fuad Əsədovun (1972–1992) xatirəsinə həsr edilən qorelyefin önünə qərənfillər düzüblər. Hər iki şəhidin simasında Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda edənlərin xatirəsi ehtiramla anılıb.

Sonra şəhid Ramil Ağayevin adına studiyanın qapısı üzərində lövhənin açılışı olub. Otaqda onun həyat və döyüş yolunu əks etdirən posterlər və qərənfillərlə bəzədilmiş xatirə guşəsi qurulub.

Tədbirdə şəhid haqqında məlumatları əks etdirən slayd təqdim olunub, tələbələrin ifasında vətənpərvərlik mövzusunda musiqi əsərləri səsləndirilib.

Anım tədbiri daha sonra İtaliya-Azərbaycan Dizayn mərkəzində davam edib. Çıxışlarda şəhid Ramil Ağayevin adını daşıyan studiyanın onun qəhrəmanlıq dolu həyatını və tələbəlik dövründəki arzularını gələcək nəsillərə çatdırmaq üçün yaddaş simvolu olacağı bildirilib.

Ramil Ağarəhim oğlu Ağayev 20 sentyabr 1994-cü ildə Sabirabad rayonunda doğulub. Ailənin yeganə övladı olub. 2016-cı ildə Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsini bitirib. 2020-ci ilin Vətən müharibəsində Füzuli və Hadrut istiqamətlərində döyüşlərdə iştirak edib. Oktyabrın 11-də şəhid olub. Sabirabad rayonunda torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. Ailəli idi, bir qızı əmanət qalıb…

# Nakam şair ömrünün üfüqləri



XX əsrin əvvəlləri İran ədəbiyyatında tənqidi realist poeziyanın tanınmış nümayəndələrindən biri də Mirzadə Eşqi olub. 30 illik nakam ömrünə zəngin ədəbi irs sığdıran şairin bu il anadan olmasının 130, vəfatının isə 100 illiyidir.

Seyid Məhəmmədrza Mirzadə 1894-cü ildə Həmədan şəhərində anadan olub. İbtidai təhsilini molla məktəbində alır. Sonra "Ülfət" və "Alyans" məktəblərində təhsilini davam etdirir. Fransız dilini öyrənir. Əmək fəaliyyətinə fransalı bir tacirin mağazasında tərcüməçi kimi başlayır. Bir müddət sonra jurnalistlik fəaliyyəti göstərir. Şəhərdə "Eşqinin qəzeti" adlı kiçik formatlı qəzet nəşr etdirir. Cəmi 3 nömrəsi işıq üzü görən qəzet qısa müddətdə bağlanır. O bu məhdudiyyətlərə görə ruhdan düşmür. Böyük təmkin və səbirlə jurnalistik fəaliyyətini davam etdirir. Müxtəlif dövri mətbuat səhifələrində publisistik məqalələrlə çıxış edir.

Mirzadə Eşqi 1910-cu ildə Tehranda çıxan "Siyasət" qəzetində dərc etdirdiyi şeir və məqalələrində riyakar dövlət xadimlərinə, onların xalqın ziyanına apardıqları yaramaz siyasətə qarşı kəskin etirazını bildirir. Ölkədə cərəyan edən siyasi oyunlarla bağlı düşüncələrini aydın şəkildə xalqa çatdırmaq istəyir. Bunun üçün yeni ədəbi üslub yaratmağa çalışır. Bu istəyinə "Novruznamə" əsəri ilə nail olur.

Ədibin yaradıcılıq siması və vətəndaşlıq mövqeyi eyni zamanda "İran sultanlarının dirilməsi", "Qara kəfən", "Ehtiyac", "Vətən eşqi", "Üç tablo" və s. kimi əsərlərində öz əksini tapır.

Şair "Uzunqulağa minmiş respublika" poemasını şifahi xalq ədəbiyyatı motivləri əsasında qələmə alır. Əsərdə Britaniya imperializmi kəskin tənqid edilir. İngilislərin "respublika" şüarı altında xalqın malını, İranın sərvətini talan etdiyi açıq şəkildə diqqətə çatdırılır. Şair sadə, anlaşıqlı bir dillə mühüm siyasi mətləbləri gündəmə gətirir. "Qara kəfən" poemasında qadınlara kişilərlə bərabər hüquqların verilməsi tələb olunur. Onları qara çadraya-kəfənə bürüyərək cəhalət və səfalət içərisində, zülm və əsarət altında yaşamağa məhkum edənlər tənqid edilir. Müəllifin həyat idealının aynası olan "Dördüncü məclis haqqında müstəzad", "Xilqətdən narazılıq", "Ehtiyac, ey ehtiyac", "Başərin məzəmmət edilməsinə dair" və s. əsərləri oxucular tərəfindən maraqla qarşılanıb.

Şairin "Bir qoca kəndlinin, yaxud Eşqinin idealı" poemasında da siyasi motivlər diqqəti cəlb edir. Əsərin qəhrəmanı oxucunun gözləri önündə oddan-alovdan keçir. Məmurluqdan xalq hərəkatı və Məşrutə (konstitusiya) inqilabının öncüllərindən birinə çevrilir. Qarşılaşdığı və yaşadığı hadisələr onda azadlıq amalının yaranmasına səbəb olur. İstibdad rejimi rəhbərlərinin satqınlığı, xalqı riyakarcasına aldadaraq istismar etmələri sadə kəndli qəlbində mövcud quruluşa qarşı nifrət, qisas hissləri oyadır. Hakim üsuli-idarəni yıxmaq idealı onun həyat amalına dönür.

M.Eşqi İran məclisinin (parlament) nümayəndələrinə qoşularaq İstanbula gedir. İstanbul Darülfünunun Fəlsəfə və ədəbiyyat fakültəsində azad dinləyici kimi mühazirələrə qatılır. Avropa ədəbiyyatı ilə yaxından tanış olur. Eyni zamanda yeni türk ədəbiyyatını mütaliə etmək imkanı əldə edir. 1918-ci ildə, I Dünya müharibəsi başa çatdığı zaman Həmədana qayıdır. Bu zaman Rusiyada Oktyabr inqilabı qələbə çalır. İnqilabın əsəri İrana da gəlib çatır. Tehranda izdihamlı mitinqlər baş qaldırır. Bu axına M.Eşqi də qatılır. Artıq İngiltərə, Almaniya və başqa dövlətlər İranda müstəmləkəçilik siyasəti yeridə bilmirlər. Həmin ərəfədə M.Eşqi həbs edilir, bir neçə ay zindanda saxlanılır…

M.Eşqi 1924-cü ildə "İyirminci əsr" adlı jurnalın nəşrinə başlayır. Ancaq bu nəşrin bircə nömrəsi işıq üzü görür. Jurnalda verilən karikaturada ayaqları tərsinə nallanmış bir uzunqulaq, onun üstündə isə sağ əlində silah, sol əlində pul kisəsi tutan bir quldur təsvir olunur. Karikaturada uzunqulağın ayaqlarına vurulan tərsinə nallar İranı geri çəkmək istəyən Rza xan, silah, zorakılıq, pul kisəsi isə ingilislərin vətən xainlərinə verdiyi rüşvətin rəmzi olur. Cümhuriyyət şüarını müdafiə edən müxtəlif mətbuat orqanları isə ilan-qurbağa kimi təsvir edilir.

Bir həftə sonra, 3 iyul 1924-cü ildə Mirzadə Eşqi öz evində naməlum şəxslər tərəfindən qətlə yetirilir. Şairin ölümündən sonra yaxın dostu Əli Əkbər Səlimi 1927-ci ildə müəllifin "Seçilmiş əsərlər"ini çap etdirir. 1929-cu ildə M.Eşqinin "Divan"ı Tehranda nəşr olunur. Həmin divan 1945 və 1952-ci illərdə təkrar çapdan çıxır.

Ədibin həyat və yaradıcılığı İranda, Avropa və keçmiş sovetlər birliyində, o cümlədən Azərbaycanda alimlərin diqqətini çəkib. Haqqında məqalələr və dissertasiyalar yazılıb. Əsərləri Azərbaycan, rus, özbək, türkmən və s. dillərə tərcümə edilib.

**Savalan Fərəcov**

# O sanki mizrabla ilmə-ilmə naxış toxuyurdu...



Azərbaycan tarı... Onun sədası əsrlərdir qəlblərimizi oxşayır, ruhumuza sığal çəkir. Əbəs deyil ki, tarı Azərbaycan milli musiqisinin təmiz nəfəsi kimi səciyyələndiriblər.

Mərhum musiqişünas Məcnun Kərimov tarı belə tərif edib: "Tar Azərbaycan simli musiqi alətləri arasında texniki və dinamik imkanlarına görə ən mükəmməl çalğı alətidir. Azərbaycan tarı həm xarici görkəmi, həm səs tembri, həm də ifa tərzinə görə başqalarından fərqlənir, daha mükəmməl hesab edilir".

"Tar" qədim türk sözü olub, Azərbaycan dilində bir çox mənalarda işlədilir. Məsələn, "tarım çəkmək", "tarma", "tar etmək" və s.

Böyük bəstəkar və pedaqoq Üzeyir Hacıbəyli Azərbaycan tarının texniki ifaçılıq və səslənmə imkanlarına istinadən yazırdı: "Tar Şərq musiqi təhsilini artıra bilən alətlərdən ən qiymətlisi və ən mühümüdür".

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda görkəmli tarzənlər nəsli yetişməyə başlayıb. Mirzə Sadıq (Sadıqcan), Mirzə Mansur Mansurov, Məşədi Zeynal Haqverdiyev, Məşədi Cəmil Əmirov, sonralar Məmmədxan Bakıxanov, Sərvər İbrahimov, Bəhram Mansurov, Həbib Bayramov kimi sənətkarlar bu sənətin yaşadılması və təbliğinə mühüm töhfələr veriblər. Bu ustadların davamçıları olan tarzənlər XX yüzillikdə Azərbaycan tar ifaçılığını daha da zənginləşdiriblər. Bu yazıda onlardan biri, bu il anadan olmasının 100 illiyi qeyd edilən unudulmaz tarzən, pedaqoq, musiqi təşkilatçısı, Əməkdar artist Əhsən Dadaşovun (1924–1976) yaradıcılıq yoluna nəzər salırıq. 52 il ömür yaşayan görkəmli tarzən instrumental ifaçılıq tariximizdə əbədi qalacaq özünəməxsus dəst-xətt və ad qoyub.

## Tar sənətinin Əhsən zirvəsi

Tar aləti kənardan sadə görünsə də, ifası o qədər də asan deyil. Tarın özünəməxsus ifaçılıq xüsusiyyətləri var. Xalq artisti, tarzən Vamiq Məmmədəliyevin dərslərini çox izləmişəm və ondan eşitdiyim maraqlı ifadələr yadıma düşür. O, həmişə tələbələrinə deyirdi ki, bu, Əhmədxanın xallarıdır, bu, Əhsənin mizrabıdır. Yəni hər ifaçının öz yolu var. Bu xüsusda mütəmadi eşitdiyim "Əhsən mizrabı", "Əhsən barmağı" ifadələri mədəniyyət sahəsinin yazarı kimi məni həmişə düşündürüb. Görəsən, Əhsən Dadaşovun ifaçılığını digərlərindən fərqləndirən cəhətlər nələrdir?

Elə ifaçılar var ki, dəfələrlə, saatlarla dinləyərsən və hər dəfəsində də yenilik taparsan. Əhsən Dadaşov ifaçılığı da məhz belə olub. O, istər solo ifaçı, istər müşayiətçi, istərsə də bəstəkar kimi milli musiqimizin inkişafına mühüm töhfələr verib. Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini, muğamlarımızı yüksək məharətlə, incə zövqlə ifa edib.

Görkəmli tarzən bütün yaradıcılığı boyu milli musiqidən bəhrələnib. Bəlkə də məhz bu cəhət ona muğamı, mahnını bənzərsiz mizrablarla və xallarla təqdim etmək imkanı yaradıb. Milli musiqimizin instrumental ifaçılığı tarixində elə sənətkarlar var ki, onların çalğısı bizə qeyri-adi əhval bəxş edir. Əhsən Dadaşovun lent yazılarını dinləyərkən onun ifaçılığı da bizə bu əhvalı yaşadır. O sanki mizrabla ilmə-ilmə naxış toxuyur. Xalçalarımıza vurulan misilsiz naxışlar kimi musiqimizi də milli naxışlarla bəzəyir, əlvan rənglərə boyayır. Bu xüsusiyyət Əhsən Dadaşovu klassik peşəkar ifaçılar içərisində fərqləndirirdi. O, tarın çalğı elementlərini daha yüksək səviyyəyə qaldırmış bir sənətkar idi.

Yazını yazdıqca Əhsən Dadaşovun 20 il bundan əvvəl Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında təşkil edilən 80 illik yubiley gecəsini xatırlayıram. Daha sonra isə 5 il əvvəl, 2019-cu ildə tarzənə həsr olunan "Əhsən sənə, Əhsən" kitabının təqdimat mərasimi yada düşür.

İlk tədbirdə Milli Konservatoriyanın rektoru Xalq artisti Siyavuş Kərimi sevimli müəllimi, Azərbaycan mədəniyyətinin iftixarı, fitri musiqi qabiliyyətinə malik olan Əhsən Dadaşovu belə xarakterizə etmişdi: "Əhsən müəllim böyük ustad idi. O, muğam və təsnifləri böyük bir zövqlə, çox yüksək lirik duyğularla ifa edirdi. Onun tarında "Rast", "Orta Mahur", "Bayatı-Şiraz" və digər muğamlar həddindən artıq gözəl səslənirdi. Onun ifasını dinləyəndə əmin olursan ki, muğam yalnız tar sənətinə yaraşır".

Akademik Rafael Hüseynov isə tarzənə həsr olunmuş kitabın təqdimatında bu fikri səsləndirmişdi: "Əhsən Dadaşovu təkrarlamaq çətin idi. Nə sağlığında, nə də sonra onu təkrarlayaraq ona bənzəyə bilən ikinci sənətkar olmayıb. Ərəb dilində gözəllik mənasını verən Əhsən adı tarzənin həyatını gözəlləşdirib. Əhsən Dadaşovun bəxti onda gətirib ki, onun Mirzə Mənsurov, Ənvər Mənsurov kimi ustadları olub. "Öz müəlliminə bənzəmə!" deyərək Ənvər Mansurov ona məsləhət verirdi. Bunun sayəsində Əhsən Dadaşov heç kimə bənzəməyib, öz dəst-xəttini yarada bilib".



Görəsən, nə idi bu özünəməxsusluq. Əlbəttə ki, ilk növbədə, ilhamlı, poetik və emosional ifa. Bir də sənətkarın daim axtarışda olması. O, hələ gənc yaşlarından müəllimlərinin, daha sonra xalqın, çalışdığı kollektivin sevgisini qazanmışdı. Bu sevgini isə ona fitri istedadı, coşqun yaradıcılıq eşqi, xalq musiqisinə bağlılıq qazandırmışdı.

## Novator ansambl rəhbəri

O həm də novator ansambl rəhbəri kimi musiqi tariximizdə iz qoyub. Azərbaycan Televiziyası (o vaxtlar Bakı televiziya studiyası) nəzdində 1960-cı ildə xalq çalğı alətləri ansamblı yaratmış və ömrünün sonuna kimi bu ansamblın bədii rəhbəri olmuşdu. Hazırda "Xatirə" xalq çalğı alətləri ansamblı Əhsən Dadaşovun adını daşıyır. O, ansamblda səslənmə, ifaçılıq üslubuna yenilik gətirməklə yanaşı, həm də uzun zaman unudulan ud alətini də musiqimizə qaytarıb. İlk dəfə udla əlavə ansambla bas-tar alətini daxil edir. O, alətlərin bir-birini əvəzləməsi və qrup şəklində səslənməsinə xüsusi diqqət edərək ansamblda rəngarəng tembr yarada bilmişdi.

## Tarın simlərində "çəkilən" lirik duyğular

Əhsən Dadaşov həm də gözəl duyğulara sahib bir bəstəçi idi. Bu gün musiqi salnaməmizdə onun bəstələdiyi "Humayun", "Segah" rəngləri zərif melodiyalarla zəngin, ritmik və ahəngdarlığı ilə yaddaqalandır. Əbəs yerə bu bəstələrə görə tarzəni lirik duyğular rəssamı adlandırmırlar. Çünki bu bəstələri dinləyəndə ritmik boyalarla sanki bir əlvan tablo yaranır insan gözü qarşısında. Onun ifalarında olduğu kimi, bəstələrində də öz mizrabı, gəzişmələri, musiqi ladı və çalğısı hiss olunur. Bu ifalar sanki dinləyici ilə danışır, onunla dialoqa girir. İfasındakı xallar və texnikalar bütün incəliyi ilə dinləyiciyə tarın möhtəşəmliyini və Azərbaycan musiqisinin qüdrətini diktə edir.

Qüdrət demişkən, bu məqamda Azərbaycan elminin qüdrətli isimlərindən akademik Vasim Məmmədəliyevin bir vaxt Əhsən yaradıcılığı haqqında dediyi fikirdən sitat da yerinə düşər. O, Əhsən Dadaşovu bəstəkar ürəkli ifaçı adlandırırdı: "Əhsəni tarsız, tarı Əhsənsiz təsəvvür etmək mümkün deyil. Böyük sənətkarın udda ifa etdiyi "Şur"dan doymaq olmur. Mən hər dəfə rəhmətlik Qədir Rüstəmovun Əhsənin ansamblı ilə ifa etdiyi "Sona bülbülləri" dinləyərkən göz yaşlarımı saxlaya bilmirəm. Bu zaman təkcə Qədir yox, Əhsənin tarı da oxuyur".

Mərhum Xalq artisti, tarzən Fikrət Verdiyev isə tarzənlə bağlı xatirələrində deyirdi: "Tarda incə tembrli səs effektləri məhz bu istedadlı musiqiçinin ifasında gözəl alınırdı. Görkəmli bəstəkarımız Hacı Xanməmmədov tar üçün bir-birindən gözəl konsertlər bəstələyib. Bu konsertlərin yaranmasına məhz Əhsənin gözəl ifası təkan verib".

Bir neçə gün əvvəl Əhsən Dadaşovun 100 illiyi ilə bağlı hazırlanan televiziya verilişi üçün müsahibə verən, bir vaxtlar Əhsən Dadaşovun ansamblında kamança ifaçısı kimi fəaliyyət göstərmiş Əməkdar incəsənət xadimi, professor Arif Əsədullayev isə onu belə xatırlayır: "Əhsən Dadaşovun ansamblında çalışmağın özü mənim üçün bir konservatoriya bitirmək qədər dəyərli idi. Əhsən Dadaşov, sözün böyük mənasında, həyat və sənət akademiyası idi".

## Əhsən sənə, Əhsən...

Bu sözləri Üzeyir Hacıbəyli 13 yaşlı Əhsənin tarda çalğısını dinləyəndən sonra demişdi. Dahi bəstəkarın xeyir-duası bu gün də Əhsən Dadaşov sənətinə ən ali qiymətdir. Çünki onun ifasında lent yazılarını hər dinləyəndə yada düşür.

2019-cu ildə mərhum yazıçı-jurnalist Rafiq Hacıyev Əhsən Dadaşov sənətinə həsr etdiyi "Əhsən sənə, Əhsən" adlı kitabını təqdim etdi. Kitabda tarzənin həyat və yaradıcılığı geniş və dolğun şəkildə əhatə olunub.

İllər keçəcək. Görkəmli tarzənin çalğısı, dünən və bu gün olduğu kimi, yenə dinləyicini düşündürəcək, onun qəlbini lirik, səmimi hisslərlə zənginləşdirəcək. Musiqisevərlər onun ifasında Azərbaycan muğam və rənglərinin, bəstəkarlarımızın əsərlərinin lent yazılarını hər zaman sevə-sevə dinləyəcəklər. Çünki bu ifalarda o, hər bir muğamın ladına məxsus fəlsəfəsini yarada bilib. Bütün varlığı ilə sənəti duyan və sevən, musiqi xəzinəmizin məna ideyalarını öz ifasında əbədiləşdirən sənətkar adını da mədəniyyət salnaməmizə əbədi həkk edib. Tar ifaçılığı sənətimiz var olduqca, Əhsən sənəti də yaşayacaq. "Əhsən sənə!..." alqışları ilə birgə...

**Lalə Azəri**

*Azərbaycan Mətbuat Şurasının, "ƏHSƏN" Yaradıcılıq Təşəbbüsləri Mərkəzinin və Xəzər Media Mərkəzinin Əməkdar artist Əhsən Dadaşovun yaradıcılığı ilə bağlı birgə yazı müsabiqəsinə təqdim olunur*

## BDU tələbələrinin tamaşası



Bakı Dövlət Universiteti (BDU) Mədəniyyət-Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə tələbələr Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının səhnəsində Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını təqdim ediblər. Tamaşanın nümayişi BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) 50 illik yubileyinə həsr olunub.

Tamaşanın nümayişindən əvvəl THİK-in sədri Zöhrab Cavadzadə təşkilatın fəaliyyətindən, gənclərin təhsil və sosial fəaliyyətlərinə dəstək olmaq üçün həyata keçirilən layihələrdən söz açıb.

Sonra "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşası nümayiş olunub.

Səhnə əsərinin quruluşçu rejissoru teatrın aktyoru Vahid Orucoğludur. Rolları universitetin tələbələri Tural Behbudov, Kənan Neymətzadə, Ülviyyə Orucova, Ramazan Ramazanzadə, Hüseyn Cabbarlı, Nərmin Zeynalova, Mehriban İbrahimli, Üzeyir Kərimov və Səkinə Məmmədova canlandırıblar.

## "Turan ellərinin sədaları"



Beynəlxalq Muğam Mərkəzi Cahangir Cahangirov adına Xorunun (bədii rəhbər və dirijor – Əməkdar müəllim Təranə Yusifova) konserti keçirilib.

Oktyabrın 25-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında gerçəkləşən "Turan ellərinin sədaları" adlı konsertdə Azərbaycan, türk, özbək, türkmən, qırğız, uyğur xalq musiqilərinə işləmələr və kompozisiyalar təqdim olunub.

Konserti izləyənlər sırasında mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov və tanınmış musiqi xadimləri olub.

Konsertdən əvvəl Əməkdar incəsənət xadimi, musiqişünas Sənubər Bağırova çıxış edərək xorun repertuar seçimi və fəaliyyəti haqqında fikirlərini bölüşüb. Bildirib ki, qısa zaman kəsiyində yeni tərkibdə formalaşan kollektiv bir-birindən maraqlı çıxışları ilə musiqisevərlərin diqqətini cəlb edə bilib. Kollektiv müasir musiqi yanaşmalarına açıq, eyni zamanda klassik ənənəyə sadiqlik nümayiş etdirərək parlaq çıxışları ilə ölkəmizdə və xaricdə maraqlı konsert proqramları ilə çıxış edir.

Sonra söz musiqiyə verilib. Xorun ifasında turan ellərindən sədalanan musiqi notları tamaşaçıların alqışları ilə qarşılanıb.

Konsertin sonunda Milli Konservatoriyanın prorektoru professor Lalə Hüseynova çıxış edərək maraqlı və peşəkar çıxışına görə kollektivə təbriklərini çatdırıb, yeni uğurlar arzulayıb.

## Xatirə təqvimi — 30 oktyabr – 4 noyabr

### Azərbaycan

**30 oktyabr 1880** – Xalq artisti, ustad tarzən Qurban Baxşəli oğlu Pirimov (1880 – 29.8.1965) Şuşa qəzasının Abdal-Gülablı (indiki Ağdam rayonu) kəndində doğulub. Xanəndə Cabbar Qaryağdıoğlu və kamançaçı Saşa Oqanezaşvili ilə birlikdə yaratdığı muğam üçlüyündə 20 ilə yaxın fəaliyyət göstərib. 1920-ci ildən Opera və Balet Teatrının solisti olub.

**30 oktyabr 1907** – Əməkdar mədəniyyət işçisi, jurnalist, tərcüməçi Adil Ələddin oğlu Əfəndiyev (1907-1973) Bakıda doğulub. Respublika Jurnalistlər Birliyinin ilk sədri olub. Rusca-azərbaycanca üççildlik lüğətin tərtibçisidir, rus və Avropa yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edib.

**30 oktyabr 1928** – Tanınmış sənətşünas alim, akademik Rasim Səməd oğlu Əfəndiyev (1928 – 13.2.2010) Qazaxda doğulub. "Azərbaycan dekorativ-tətbiqi sənəti", "Azərbaycanın bəzək sənəti", "Azərbaycan daş plastikası" kitabları xarici dillərə tərcümə olunub. AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru işləyib.

**30 oktyabr 1992** – Əməkdar incəsənət xadimi, şair Tofiq Mütəllim oğlu Mütəllibov (13.4.1929 – 1992) vəfat edib. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**30 oktyabr 2005** – Xalq artisti, müğənni, bəstəkar Məmmədbağır Bağırzadə (21.7.1950 – 2005) vəfat edib.

**31 oktyabr 1910** – Əməkdar artist Ağa Əsgər oğlu Məmmədov (1910-1973) Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. Tiflis Azərbaycan Dram, Gəncə Dövlət Dram teatrlarının aktyoru olub.

**31 oktyabr 2012** – Bakıda görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün abidəsinin (heykəltaraş: Akif Əsgərov) açılışı keçirilib. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

**1 noyabr 1923** – Qəzəlxan şair Əliağa Bakir (Əliağa Hacağa oğlu Rzayev; 1923-1998) Bakıda anadan olub.

**1 noyabr 1945** – Kinorejissor, ssenarist Nicat Feyzullayev (1945–2015) Bakıda tanınmış rəssamlar Lətif Feyzullayev və Vəcihə Səmədovanın ailəsində anadan olub. "Küçələrə su səpmişəm" bədii və çoxsaylı sənədli filmlər çəkib.

**1 noyabr 1965** – Məşhur xanəndə, Xalq artisti Seyid Şuşinski (Mir Möhsün ağa Seyid İbrahim oğlu; 12.4.1889 – 1965) vəfat edib. 1930–60-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, pedaqoji fəaliyyət göstərib.

**1 noyabr 2005** – Əməkdar artist Bürcəli Veysəl oğlu Əsgərov (15.2.1933 – 2005) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb. Filmlərdə, televiziya tamaşalarında çəkilib.

**1 noyabr 2022** – Əməkdar incəsənət xadimi, kinorejissor, ssenarist Leyla Həzrət qızı Səfərova (15.10.1945 – 2022) vəfat edib.

**2 noyabr 1934** – Şair, Əməkdar müəllim Oqtay Rza (Oqtay Məhərrəm oğlu Rzalı; 1934 – 18.8.2019) Salyan rayonunun Qalalı kəndində doğulub. N.Tusi adına ADPİ-də işləyib. Dünya xalqları ədəbiyyatından tərcümələr edib.

**2 noyabr 1937** – Görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlu (Mahmudov; 1937 – 18.11.2000) anadan olub. "Hicran", "Bankir adaxlı" və s. musiqili komediyaların, populyar mahnıların müəllifidir. Tamaşalara, filmlərə ("Bizim Cəbiş müəllim", "Gün keçdi", "Dədə Qorqud", "Onun bəlalı sevgisi", "İstintaq" və s.) musiqi bəstələyib.

**2 noyabr 1937** – Əməkdar artist, xanəndə Kifayət Gəncəli (Kifayət İslam qızı Məmmədova; 1937 – 22.9.2024) Gəncə şəhərində anadan olub.

**2 noyabr 1947** – Əməkdar artist Telman Rüstəm oğlu Əliyev (1947 – 4.7.2017) Şuşa şəhərində anadan olub. Gəncə, Akademik Milli Dram teatrlarında çalışıb, filmlərdə çəkilib.

**2 noyabr 1955** – Əməkdar artist Rafiq Əli oğlu İbrahimov (1955 – 13.9.2024) Bakıda anadan olub. Sumqayıt teatrında çalışıb, otuz ilə yaxın Bakı Bələdiyyə Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**2 noyabr 1964** – Əməkdar artist Murad Məmmədrza oğlu Muradov (1884–1964) vəfat edib. Ağdam rayonunun Muradbəyli kəndində doğulub, Akademik Dram Teatrının aktyoru olub.

**2 noyabr 1988** – Görkəmli aktrisa, Azərbaycanın və SSRİ-nin Xalq artisti Hökumə Abbasəli qızı Qurbanova (11.6.1913 – 1988) vəfat edib. 1938-ci ildən Akademik Dram Teatrında çalışıb.

**3 noyabr 1943** – Tiflis Azərbaycan teatrının ilk peşəkar aktyorlarından olmuş Mirzəli (Əlibala) Hacı Abbas oğlu Abbasov (1870–1943) vəfat edib. Tamaşalara quruluş verib, pyeslər yazıb. Gürcüstanın Əməkdar artisti olub.

**3 noyabr 1983** – Görkəmli aktyor, Xalq artisti Əliağa İsmayıl oğlu Ağayev (22.3.1913 – 1983) vəfat edib. Dövlət Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında çalışıb. Filmlərdə yaddaqalan obrazlar yaradıb.

**3 noyabr 1997** – Əməkdar artist Zemfira Nəriman qızı Quliyeva (23.11.1937 – 1997) vəfat edib. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**3 noyabr 2007** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Böyükağa Məşədi oğlu Mirzəzadə (21.2.1921 – 2007) vəfat edib. Tematik tablolar, portret janrında uğurlu nümunələr yaradıb, teatr tamaşalarına bədii tərtibat verib.

**4 noyabr 1944** – Əməkdar mədəniyyət işçisi, rejissor, animasiya filmləri rəssamı Rauf Məmmədağa oğlu Dadaşov (1944 – 9.2.2020) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında, "Azanfilm" studiyasında işləyib.

**4 noyabr 1954** – Aktyor Fərman Abdulcabbar oğlu Abdullayev (1954 – 5.3.2013) Şəkidə anadan olub. Şəki teatrında çalışıb, filmlərdə ("Həm ziyarət, həm ticarət...", "Yalan") çəkilib.

**4 noyabr 1967** – Əməkdar artist Ələkbər Hüseyn oğlu Hüseynzadə (3.10.1887 – 1967) vəfat edib. "Arşın mal alan" (1945) filmində Soltan bəy obrazına görə Dövlət mükafatına layiq görülüb.

### Dünya

**30 oktyabr 1751** – İngilis-irland yazıçısı Riçard Brinsli Şeridan (Richard Brinsley Sheridan; 1751–1816) anadan olub.

**30 oktyabr 1871** – Fransız şairi, yazıçı, filosof Pol Valeri (Paul Valery – Ambroise Paul Toussaint Jules Valery; 1871–1945) anadan olub.

**31 oktyabr 1922** – SSRİ-nin Xalq artisti Anatoli Papanov (1922 – 5.8.1987) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Avtomobildən qorun", "Brilyant əl", "12 stul" və s.

**31 oktyabr 1993** – İtalyan kinorejissoru Federiko Fellini (Federico Fellini; 20.1.1920 – 1993) vəfat edib. Beş dəfə "Oskar" mükafatına layiq görülüb. Filmləri: "Yol", "Kabiriya gecələri", "Şirin həyat", "Səkkiz yarım" və s.

**1 noyabr 1636** – Fransız şairi, ədəbiyyatşünas, klassisizmin nəzəriyyəçisi Nikola Bualo (Nicolas Boileau-Despreaux; 1636 – 13.3.1711) anadan olub.

**1 noyabr 1781** – Alman rəssamı Yozef Karl Ştiler (Joseph Karl Stieler; 1781–1854) anadan olub.

**2 noyabr 1906** – İtalyan kino və teatr rejissoru Lukino Viskonti (Luchino Visconti di Modrone; 1906 – 17.3.1976) anadan olub. Filmləri: "Rokko və onun qardaşları", "İnteryerdə ailə portreti" və s.

**2 noyabr 1950** – İrland əsilli Britaniya yazıçısı, dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı (1925) laureatı Corc Bernard Şou (George Bernard Shaw; 26.7.1856 – 1950) vəfat edib.

**3 noyabr 1797** – Rus yazıçısı Aleksandr Bestujev-Marlinski (1797–1837) anadan olub. Qafqaza sürgün olunub. Azərbaycan xalq qəhrəmanın həyatından bəhs edən "Molla Nur" povestini yazıb.

**3 noyabr 1801** – İtalyan bəstəkarı Vinçenso Bellini (Vincenzo Salvatore Carmelo Francesco Bellini; 1801–1835) anadan olub. Operaları: "Norma", "Somnambula" və s.

**3 noyabr 1869** – Rus şərqşünası, akademik Vasili Bartold (1869–1930) anadan olub. "Kitabi-Dədə Qorqud"un bəzi boylarını rus dilinə tərcümə edib.

**4 noyabr 1575** – İtalyan rəssamı Qvido Reni (Guido Reni; 1575–1642) anadan olub.

**4 noyabr 1923** – Alman yazıçısı Barbara Bartos-Höpner (Barbara Bartos-Höppner; 1923–2006) anadan olub. Uşaq və yeniyetmələr üçün kitabların, ssenarilərin müəllifidir.

**Hazırladı: V.Orxan**

№81 (2146)
1 noyabr 2024
www.medeniyyet.az

# Azərbaycan Bəstəkarlar İttifaqının 90 illiyi münasibətilə Berlində konsert

Ölkəmizin Almaniyadakı səfirliyinin və Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) birgə təşkilatçılığı ilə oktyabrın 28-də Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində klassik musiqi gecəsi keçirilib.




ABİ-nin 90 illik yubileyinə həsr olunan mərasim ittifaqın sədri Xalq artisti, professor Firəngiz Əlizadənin "Zəfər" marşının səslənməsi ilə başlayıb.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxış edərək 90 il əvvəl ABİ-nin yaranmasında dahi bəstəkar, müsəlman dünyasında ilk operanın müəllifi, Şərq və Qərb musiqisini bənzərsiz şəkildə birləşdirərək dünya klassik musiqisi inciləri sırasında yer alan əsərlər yaratmış Üzeyir Hacıbəylinin xidmətlərini xüsusi qeyd edib. Bildirib ki, ittifaq fəaliyyəti dövründə Azərbaycan musiqisinin inkişafında mühüm rol oynayıb.

Firəngiz Əlizadənin yaradıcılığı və fəaliyyəti barədə danışan səfir qeyd edib ki, dünyaca məşhur bəstəkar ənənəvi Azərbaycan musiqisini müasir, avanqard texnika ilə füsunkar şəkildə birləşdirərək unikal əsərlər yaradıb.

Sonra çıxış edən Firəngiz Əlizadə Azərbaycanın zəngin musiqi irsinin Berlində nümayiş etdirilməsi baxımından tədbirin əhəmiyyətini vurğulayıb: "Gözəl musiqimizin Almaniyanın paytaxtında səslənməsi çox qürurvericidir". O, ABİ-nin 90 ildə uğurlu inkişaf yolu keçdiyini deyərək qurumun yubileyinin ölkəmizdən kənarda da qeyd edilməsini əlamətdar hadisə olduğunu bildirib.

Çıxışlardan sonra konsert proqramı təqdim olunub.

Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri bədii rəhbər Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Azərbaycan bəstəkarlarının əsərlərini ifa edib. Proqramda Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Asəf Zeynallı, Musa Mirzəyev və Firəngiz Əlizadənin əsərləri yer alıb. Solistlər Əməkdar artist İnarə Babayeva (vokal) və Rövşən Əmrahov (violin) olub.

# "Mədəniyyət Yolu" İzmirdə – festival sona yaxınlaşır

Yeddinci aydır davam edən Türkiyə Mədəniyyət Yolu Festivalı artıq sona yaxınlaşır. Festivalın 15-ci dayanacağı İzmir şəhəridir. Egeyin incisi 26 oktyabr – 3 noyabr tarixlərində "Mədəniyyət Yolu"na ev sahibliyi edir.



Qeyd edək ki, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2021-ci ildə əsası qoyulan və ölkənin mədəni irsini, incəsənətini, tarixi məkanlarını, bölgədən-bölgəyə özünəməxsus kulinariyasını və s. əhatə edən ən böyük layihəyə çevrilən Mədəniyyət Yolu Festivalı bu il dördüncü dəfə keçirilir. Konsertlər, sərgilər, sənət görüşləri, teatr tamaşaları, yerli mətbəx təqdimatları, çoxsaylı əyləncələr və bu kimi bir çox fərqli tədbirləri əhatə edən festivalın əsas məqsədi Türkiyənin şəhərlərinin mədəni zənginliyinin tanıdılmasına, eyni zamanda bu vasitə ilə turistik sektorun inkişafına töhfə verməkdir.

Aprel ayında Adanada start götürən festival bu il 16 şəhəri əhatə edir və hər şəhərdə doqquz gün sürür.

İzmir Mədəniyyət və İncəsənət Fabrikində təşkil edilən açılış mərasimində danışan Mədəniyyət və Turizm Nazirliyi Canlı İrs və Mədəni Fəaliyyətlər Müdiriyyətinin rəhbəri və festivalın direktoru Salim Terzi "Mədəniyyət Yolu"nun İzmirdə də zəngin proqramı olduğunu, şəhərin 58 məkanında tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

İzmir valisi Süleyman Elban proqramın mədəniyyət və incəsənətin iç-içə olduğu inanılmaz bir turizm festivalına çevrildiyini ifadə edərək deyib: "9 gün ərzində ümumilikdə 300-ə yaxın tədbirimiz olacaq. Bunların arasında opera tamaşaları, rəsm sərgilərimiz, konsertlərimiz, sənət atelyeləri və muzeylərdə layihələr var".

Festival çərçivəsində İzmir Rəsm və Heykəl Muzeyində açılan "Pablo Pikasso – rəsmdən keramikaya macəra" sərgisi çox sayda ziyarətçi toplayıb. Sərgidə dünyaca məşhur rəssama aid 170 eksponat – qravüra, qrafika, litoqrafiya əsərləri, afişa və fotoşəkillər nümayiş olunur.

İzmir Mədəniyyət və İncəsənət Fabrikində Ətir Mədəniyyəti və Turizm Dərnəyinin təşkil etdiyi Atatürkün sevimli ətirləri və qədim Romanın məşhur ətir qoxuları sərgisi də maraqla qarşılanıb.

Festival çərçivəsində 29 oktyabrda Türkiyə Cümhuriyyətinin 101-ci ildönümü münasibətilə xüsusi olaraq hazırlanan konsert, balet tamaşası və rəsm sərgisi də təqdim olunub.

"Mədəniyyət Yolu"nun İzmirdən sonrakı dayanacağı Antalya olacaq. Burada festival 2–10 noyabr tarixlərində davam edəcək və bununla 2024-cü il proqramı başa çatacaq.

# Avstriyanın zərgərlik brendi Qarabağ xalçaları əsasında kolleksiya hazırlayır

Azərbaycan Milli Xalça Muzeyi ilə Avstriyanın zərgərlik brendi "FREYWILLE" arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədə əsasən, şirkət tərəfindən Qarabağ xalçaları və onların unikal naxışları əsasında yeni kolleksiya hazırlanır.

Azərbaycan xalçaçılıq irsinin dünya miqyasında tanıdılması məqsədi daşıyan kolleksiya müasir incəsənət və zərgərlik texnologiyası ilə xalqımızın zəngin tarixini özündə birləşdirir.

Qeyd edək ki, 1951-ci ildə təsis edilən və 30 ildən artıqdır ki, Fridrix Ville tərəfindən idarə olunan "FREYWILLE" şirkəti eksklüziv bədii zərgərlik məmulatları istehsalında lider brendlərdəndir. Şirkət Viktoriya və Albert Muzeyi, Jivernidəki Klod Mone Muzeyi və Dövlət Rus Muzeyi ilə əməkdaşlıq edib. "FREYWILLE"nin mütəxəssisləri bu muzeylərdə qorunub saxlanılan Qustav Klimt, Vinsent van Qoq, Alfons Muxa, Vilyam Morris, Pol Qogen kimi dahi rəssamların əsərlərindən ilhamlanaraq əsrarəngiz kolleksiyalar yaradıblar.

Azərbaycan Milli Xalça Muzeyi ilə əməkdaşlıq nəticəsində "FREYWILLE" ilk dəfə zərgərlik məmulatlarının dizaynında Azərbaycan xalça naxışlarından və motivlərindən istifadə edəcək.




## Xronoqraf

# Tarixdə bu gün

Olaylar, faktlar (31 oktyabr – 4 noyabr)

### 140 il əvvəl...



**1 noyabr 1884-cü ildə** beynəlxalq miqyasda coğrafi uzunluq və saat zolağının başlanğıc nöqtəsi kimi Qrinviç meridianı (sıfır meridianı) qəbul edilib. Qrinviç meridianı Londondakı Qrinviç rəsədxanasının yerləşdiyi yerdən hesablanır.

### 103 il əvvəl...

**3 noyabr 1921-ci ildə** Rusiya K(b)P Mərkəzi Komitəsi Qafqaz Bürosunun plenumu Azərbaycan, Ermənistan və Gürcüstanın federasiyasının yaradılması barədə qərar qəbul edib. Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası 1922-ci ildə yaradıldı və SSRİ-nin təsisçilərindən biri oldu. ZSFSR 1936-cı ilədək fəaliyyət göstərdi və həmin il qəbul edilən yeni Konstitusiyaya əsasən, Azərbaycan, Ermənistan və Gürcüstan SSRİ-nin müttəfiq respublikalarına çevrildilər.

### 102 il əvvəl...

**1 noyabr 1922-ci ildə** Türkiyə Böyük Millət Məclisi (TBMM) Osmanlı səltənətinin sona çatması barədə qərar qəbul edib. Qərarda TBMM-in ölkə ərazisində həqiqi hakimiyyət olduğu vurğulanırdı. Axırıncı Osmanlı Sultanı VI Mehmed (Vahideddin) noyabrın 10-da İstanbulda son cümə namazına qatılıb və noyabrın 17-də ingilis hərbi gəmisi ilə Maltaya göndərilib.



### 101 il əvvəl...

**2 noyabr 1923-cü ildə** Azərbaycanı Tədqiq və Tətəbbö (Araşdırma) Cəmiyyəti – respublikanın baş elmi müəssisəsi təsis olunub. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1929-cu il 9 noyabr tarixli qərarı əsasında Azərbaycan Elmi-Tədqiqat İnstitutuna çevrilib. Sonra institutun bazasında SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təşkil olunub.

### 85 il əvvəl...



**1 noyabr 1939-cu ildə** Azərbaycan SSR Xalq Komissarları Soveti Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıqla bağlı dahi şairin həyat və yaradıcılığından bəhs edən muzeyin (indiki Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi) yaradılması barədə qərar qəbul edib.

### 78 il əvvəl...

**4 noyabr 1946-cı ildə** BMT-nin təhsil, elm və mədəniyyət üzrə təşkilatı olan UNESCO-nun (United Nations Educational, Scientific and Cultural Organization) Nizamnaməsi qüvvəyə minib. UNESCO BMT-nin ən böyük xüsusiləşmiş qurumudur. Mənzil-qərargahı Parisdə yerləşir.

### 70 il əvvəl...

**1 noyabr 1954-cü ildə** Əlcəzairdə Fransa müstəmləkəçiliyi əleyhinə inqilab başlanıb. Milli-azadlıq mübarizəsi 8 il sürdü və 1962-ci ildə Əlcəzair Xalq Demokratik Respublikası elan edildi. 1 noyabr ölkədə milli bayram – İnqilab günü kimi qeyd olunur. Əlcəzair XVI əsrin əvvəlindən Osmanlı imperiyasının tərkibində olmuş, 1830-cu ildən isə Fransanın müstəmləkəsinə çevrilmişdi.

### 32 il əvvəl...

**31 oktyabr 1992-ci ildə** Ankarada Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan dövlət başçılarının ilk zirvə toplantısı (29–31 oktyabr) başa çatıb. Sammitdə türkdilli ölkələrin əməkdaşlıq platforması qurulub. 2009-cu ildə (Naxçıvan sammiti) Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması barədə qərar qəbul edilib. Türk Şurası 2010-cu ildə İstanbul sammitində rəsmən təsis olunub. 2021-ci ildən Türk Dövlətləri Təşkilatı adlanır.

**Hazırladı: V.Orxan**

# "İkinci planetin qırmızı rəngi" festivallarda uğur qazanıb

Mədəniyyət Nazirliyinin təşkil etdiyi "Böyük Qayıdış" pitçinq müsabiqəsi çərçivəsində 2022-ci ildə "Mozalan" studiyasında istehsal olunan "İkinci planetin qırmızı rəngi" (rejissoru və ssenari müəllifi Azər Quliyev) qısametrajlı bədii filmi bir sıra festivallarda nümayiş olunub.




Ekran işinin ilk xarici premyerası bu ilin 6-10 mart tarixlərində Finlandiyada keçirilən "Tampere International Film Festival"da gerçəkləşib. Festivalın xüsusi olaraq hazırlanan "Cənubi Qafqaz" proqramı çərçivəsində nümayiş etdirilən film maraqla qarşılanıb.

Film Afinada – "Athens International Film Festival"da, "Golden Grape - Telavi International Short Film Festival"da (Gürcüstan) da nümayiş olunub. "Baku Cinema Breeze" Beynəlxalq Festivalının çətiri altında təşkil olunan XV Bakı Beynəlxalq Film Festivalında (4-8 oktyabr) "Ən yaxşı rejissor işinə görə" "Qızıl nar"a layiq görülüb.

Ekran işinin həlalik sonuncu uğur sorağı Sankt-Peterburqdan gəlib. 18-27 oktyabr tarixlərində Rusiyanın şimal paytaxtında gerçəkləşən 34-cü "Başəriyyətə İsmarıc" beynəlxalq film festivalında "İkinci planetin qırmızı rəngi" "Ən yaxşı qısametrajlı film" nominasiyasında mükafat qazanıb.

Qeyd edək ki, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası və "Narimanfilm" studiyasının ko-prodüser dəstəyi göstərdiyi filmin baş prodüseri Əli Səttar Quliyev, operatoru Alisa Tareliçeva, rəssamı Samirə Şamxalova, icraçı prodüseri Mehman Fətullayevdir. Rollarda Rafael Şahbeyli, Diana Hacıyeva, Aydan Həsənzadə və Əli Nəsib çıxış ediblər.

Film 44 günlük Vətən müharibəsi fonunda baş verən hadisələri və şəxsi həyatında çətinliklərlə üzləşən Musa adlı gəncin həyatını əks etdirir. Musa keçmişi və iztirabları ilə mübarizə apararkən şəxsi azadlığı və daxili səsi ilə qarşılaşır. Bu onun üçün yeni bir başlanğıc yaradır...

# Daşkənddə Beynəlxalq Mədəni İrs Həftəsi

## "Türkdilli ölkələrin milli musiqi alətləri" kitabının təqdimatı olub




Oktyabrın 18-dən 26-dək Daşkənddə "Şərq İntibahı fenomeni: dövlət, din, şəxsiyyət və sivilizasiya" mövzusunda Beynəlxalq Mədəni İrs Həftəsi keçirilib. 20 ölkədən 100-dən çox alim və ekspertin qatıldığı həftə çərçivəsində konfrans və seminarlar, sərgi və təqdimatlar keçirilib.

Özbəkistanın Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Yeni Özbəkistanda mədəniyyət və incəsənət sahəsində islahatlar" mövzulu beynəlxalq forum da Mədəni İrs Həftəsinin mühüm tədbirlərindən olub.

Ölkənin mədəniyyət naziri Ozodbek Nazarbekov forumda mövzu ilə bağlı təqdimatla çıxış edib. "Əcdadlarımız cəhalətə qarşı həmişə maarif bayrağı ucaldıb, zəka və qabiliyyətlərini elmin və mədəniyyətin inkişafına həsr ediblər", – deyə o vurğulayıb.

Forumda Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova da çıxış edib. O, mədəniyyətin başəriyyətin həyatında əhəmiyyətini vurğulayaraq deyib: "Nəsillərin davamı üçün mühüm təməl, gənc nəslin tərbiyəsi və inkişafı, o cümlədən milli kimliyin qorunub saxlanılması üçün zəruri olan mədəni-mənəvi irs xalqımızın misilsiz dəyəridir. Bu da öz növbəsində gənc nəslin milli mənsubiyyətinin, daxili qürurunun formalaşmasında və azad düşüncəsinin möhkəmləndirilməsində böyük rol oynayır".

Forumda Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un baş katibi Sultan Raev, Türk Parlament Assambleyasının baş katibi Mehmet Süreyya Er, TÜRKSOY Yazıçılar Birliyinin sədri, qazax şairi və publisisti Esdaulet Ulukbek iştirak ediblər.

Forum çərçivəsində Özbəkistan Prezidentinin təşəbbüsü ilə reallaşan "Canlı tarix" layihəsinin, eləcə də Türk Mədəniyyəti və İrsi Fondunun nəşri – "Türkdilli ölkələrin milli musiqi alətləri" kitabının təqdimatı da olub. Özbək milli alətlərinin sərgisi və "Çolpon" tamaşası nümayiş olunub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2553
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641